№ 43 (986) 26 oktyabr - 1 noyabr 2017-ci il

www.iqtisadiyyat.com

# İQTİSADİYYAT

Həftəlik iqtisadi, ictimai-siyasi, müstəqil qəzet | Qiyməti razılaşma yolu ilə | Qəzet 1999-cu ildən çıxır




## Əlaqələrimizin uğurlu inkişafı əməkdaşlığımıza yeni töhfələr verəcək

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın dəvəti ilə xüsusi qonaq qismində oktyabrın 20-də İstanbulda İnkişaf etməkdə olan səkkiz ölkənin İqtisadi Əməkdaşlıq Təşkilatının D-8 "Əməkdaşlıq yolu ilə imkanları artırmaq" devizi altında keçirilən IX Zirvə görüşündə iştirak etmişdir. Azərbaycanın Türkiyə, İran, Pakistan, Banqladeş, Malayziya, İndoneziya, Misir və Nigeriyanın daxil olduğu D-8 ölkələrinin toplantısında yüksək səviyyədə təmsil olunması ölkəmizin gündən-günə artan nüfuzunun göstəricisidir.

Zirvə görüşünü açıq elan edən İnkişaf etməkdə olan səkkiz ölkənin İqtisadi Əməkdaşlıq Təşkilatının - D-8-in baş katibi Seyid Ali-Mohammad Musəvi tədbirin əhəmiyyətindən danışmışdır.

D-8 təşkilatının hazırkı sədri, Pakistanın Baş naziri Şahid Xaqan Abbasi qurumun müasir dövrdə fəaliyyətinin daha da genişləndirilməsində üzv ölkələrin səylərinin gücləndirilməsinin vacibliyini vurğulamışdır. O, D-8 təşkilatına sədrliyin Pakistandan Türkiyəyə keçdiyini elan etmişdir.

Təşkilatın yeni sədri, Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan çıxışında üç qitədə yerləşən ölkələri əhatə edən D-8-in son 20 ildə fəaliyyətinin uğurlu olduğunu vurğulayaraq, dünyada baş verən gərginliklər fonunda Zirvə görüşünün keçirilməsinin önəmini qeyd etmişdir. Son illər müsəlmanların yaşadıqları bölgələrdə baş verən münaqişələrin, terrorizmin, təbii fəlakətlərin ciddi fəsadlarla nəticələndiyini deyən Türkiyə Prezidenti təəssüflə bildirmişdir ki, qlobal ədalətsizlik azalmaq əvəzinə, daha da artır. Dünyada İslamla terrorizmin əlaqələndirilməsi cəhdlərinin, islamofobiyanın və ksenofobiyanın artdığını, miqrant böhranının dərinləşdiyini bildirən Türkiyə Prezidenti demişdir ki, D-8 ölkələri dünyada çox az ölkənin sahib olduğu gənc və dinamik artan əhaliyə, zəngin təbii sərvətlərə, sürətli inkişafa malikdir. Prezident Rəcəb Tayyib Ərdoğan üzv ölkələrin bu potensialından tam səmərəli istifadə olunması nəticəsində qarşılıqlı ticarət dövriyyəsinin hazırkı 100 milyard dollardan qısa müddətdə 500 milyard dollara çatdırıla biləcəyini qeyd etmişdir. Türkiyə Prezidenti D-8 üzvlərinin sayının artırılmasının, qarşılıqlı ticarətin milli valyutalarla aparılmasının təşkilatın daha da güclənməsinə imkan yarada biləcəyini bildirmişdir.

* * * * *

Azərbaycan Prezidenti İlham Əliyev D-8 IX Zirvə görüşündə çıxış etmişdir. O, bu tədbirə dəvətə görə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğana öz təşəkkürünü bildirmiş, bunu Azərbaycan-Türkiyə qardaşlığının, dostluğunun bariz nümunəsi kimi qiymətləndirmişdir. Dövlət başçısı toplantı iştirakçılarının diqqətini ilk növbədə ölkəmizin uzun illər üzləşdiyi Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə cəlb edərək qeyd etmişdir: "Ermənistan 25 ildən artıqdır ki, Azərbaycanın tarixi torpaqlarını – Dağlıq Qarabağı və ətrafındakı 7 rayonu işğal edib. Həmin ərazilərdə etnik təmizləmə siyasəti aparılıb, 1 milyondan artıq soydaşımız qaçqın və məcburi köçkün vəziyyətinə düşüb. 1992-ci ildə Ermənistan Xocalı soyqırımını törədib. Bu hərbi cinayət nəticəsində 613 dinc azərbaycanlı qətlə yetirilib, onlardan 106-sı qadın və 63-ü uşaqdır. Minlərlə insan itkin düşüb və yaralanıb. BMT Təhlükəsizlik Şurası münaqişə ilə bağlı 4 qətnamə qəbul edib. Bu qətnamələrdə erməni silahlı qüvvələrinin Azərbaycan torpaqlarından dərhal və qeyd-şərtsiz çıxarılması tələb edilir. Eyni zamanda, Qoşulmama Hərəkatı, İslam Əməkdaşlıq Təşkilatı, ATƏT və digər təşkilatlar da oxşar qərar və qətnamələr qəbul etmişlər. Lakin işğalçı Ermənistan bu qərarlara məhəl qoymur və azərbaycanlı mülki əhaliyə qarşı hərbi cinayətlərini davam etdirir.

Ötən ilin aprelində təmas xəttində Ermənistanın silahlı hücumu nəticəsində mülki şəxslər və hərbçilər həlak olub. Yüzlərlə yaşayış evi dağıdılıb. Azərbaycan Ermənistanın bu təxribatının qarşısını qətiyyətlə aldı, ordumuz torpaqlarımızın bir hissəsini erməni işğalçılarından azad etdi. Bundan sonra Ermənistan tərəfindən tamamilə dağıdılmış Cocuq Mərcanlı qəsəbəsi yenidən quruldu. 150 evdən ibarət bu qəsəbədə məktəb, tibb məntəqəsi və məscid tikildi. Bu məscid ermənilər tərəfindən dağıdılmış Şuşa məscidinin bənzəridir.

Dağlıq Qarabağ Azərbaycanın tarixi torpağıdır. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi BMT Təhlükəsizlik Şurasının qətnamələri əsasında Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll edilməlidir. Azərbaycan dövləti və xalqı heç vaxt imkan verməyəcək ki, onun əzəli torpağında ikinci qondarma erməni dövləti yaradılsın. Ölkəmizin ərazi bütövlüyü danışıqlar mövzusu deyil və olmayacaq".

Ölkəmizdə İslam həmrəyliyinə xüsusi əhəmiyyət verildiyini vurğulayan İlham Əliyev görüş iştirakçılarının nəzərinə çatdırmışdır ki, 2017-ci il Azərbaycanda "İslam Həmrəyliyi İli" elan olunub. Eyni zamanda, bu il Azərbaycanda 54 müsəlman ölkəsindən gələn 3 minə yaxın idmançının iştirak etdiyi IV İslam Həmrəyliyi Oyunları keçirilib. Biz bu gün dünyada ən ciddi təhlükələrdən biri olan islamofobiyaya qarşı fəal mübarizə aparırıq. Özünü müsəlman ölkələrinin dostu kimi qələmə verməyə çalışan Ermənistan Dağlıq Qarabağ və ətraf bölgələrdə məscidləri və dini abidələri dağıdıb. Məscidləri dağıdan ölkə heç vaxt müsəlman ölkələrinin dostu ola bilməz.

İki gün əvvəl Azərbaycanın öz müstəqilliyinin bərpasının 26-cı ildönümünü qeyd etdiyini diqqətə çatdıran Dövlət başçısı qisa müddət ərzində ölkəmizin uğurlu inkişaf yolundan danışmışdır. "2004-cü ildən başlayaraq iqtisadiyyatımız 3 dəfədən çox artmış, 2 milyona yaxın iş yeri açılmışdır. Yoxsulluq 5 faizə düşmüşdür. Savadlılıq 100 faizə yaxındır. Valyuta ehtiyatlarımız ölkənin ümumi daxili məhsuluna bərabərdir. Xarici dövlət borcu ümumi daxili məhsulun 20 faizindən azdır. Azərbaycanın bu uğurları beynəlxalq təşkilatlar tərəfindən də qeyd olunur. Davos İqtisadi Forumunun iqtisadiyyatın rəqabətqabiliyyətliliyi üzrə builki hesabatında Azərbaycan 35-ci yeri tutub.

Azərbaycan beynəlxalq miqyaslı layihələrin təşəbbüskarı və fəal iştirakçısıdır. Bu gün biz tərəfdaşlarımızla birlikdə "Cənub Qaz Dəhlizi" layihəsini icra edirik. Bu, dünyanın ən böyük infrastruktur layihələrindən biridir. Cənub Qaz Dəhlizinin əsas hissəsi olan TANAP qaz kəməri üzrə saziş 2012-ci ildə Azərbaycan ilə Türkiyə arasında İstanbul şəhərində imzalanmışdır və bu kəmər gələn il istifadəyə veriləcəkdir.

Tezliklə rəsmi açılışı olacaq Bakı-Tbilisi-Qars dəmir yolu Avropa ilə Asiya arasında ən qısa yol olacaqdır. Azərbaycan Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizlərinin yaradılmasına böyük sərmayələr qoyur. Bu nəqliyyat dəhlizləri Avrasiyanın iqtisadi inkişafı üçün yeni imkanlar açacaqdır".

* * * * *

Zirvə görüşündə D-8 Şurasının 16-cı, 17-ci və xüsusi sessiyalarının hesabatları dinlənilmiş, gündəlikdə duran məsələlər müzakirə olunmuşdur.

Qeyd edək ki, oktyabrın 19-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İstanbulda İran İslam Respublikasının Birinci vitse-prezidenti Eshaq Cahangiri ilə görüşmüş, görüşdə Prezident İlham Əliyev ikitərəfli münasibətlərin uğurla inkişaf etdiyini bildirmiş, siyasi əlaqələrimizin yüksək səviyyədə olduğunu vurğulamışdır. İqtisadi əlaqələrimizin uğurla inkişaf etdiyini deyən Prezident İlham Əliyev Astara-Astara dəmir yolu layihəsinə dünyada böyük marağın olduğunu qeyd edərək bildirmişdir ki, bu layihə bölgədə iqtisadi əməkdaşlığın inkişafına xidmət edir.

## "Beynəlxalq investisiya siyasətləri: irəliyə doğru" mövzusunda Beynəlxalq İnvestisiya Konfransı keçirilib

Oktyabrın 24-də Bakı Biznes Mərkəzində İqtisadiyyat Nazirliyi və BMT-nin Ticarət və İnkişaf üzrə Konfransının (UNCTAD) birgə təşkilatçılığı ilə "Beynəlxalq investisiya siyasətləri: irəliyə doğru" mövzusunda Beynəlxalq İnvestisiya Konfransı öz işinə başlayıb.

Tədbirdə 11 xarici ölkənin dövlət qurumlarının, beynəlxalq təşkilatların, o cümlədən UNCTAD, Avropa Komissiyası, Beynəlxalq Əmək Təşkilatı və Enerji Xartiyası Katibliyinin təmsilçiləri, xarici universitetlərdən nümayəndələr və iş adamları iştirak edib. Azərbaycan tərəfdən konfransa böyük maraq göstərilib və tədbirə müxtəlif dövlət qurumlarını, bir sıra universitet və özəl şirkətləri təmsil edən 40-a yaxın nümayəndə qatılıb.

Konfransda çıxış edən iqtisadiyyat nazirinin müavini Sahil Babayev Azərbaycan və UNCTAD arasında əlaqələrin əhəmiyyəti, eləcə də gələcək əməkdaşlıq imkanları barədə barədə məlumat verib. Qeyd edilib ki, 2 gün davam edəcək konfransın mövzusu aktualdır və bir sıra əhəmiyyətli sahələr, o cümlədən beynəlxalq investisiya siyasətlərində son yeniliklər, beynəlxalq və regional investisiya sazişləri, investisiya mübahisələrinin həlli və investisiya siyasətlərində ən yaxşı təcrübələr mövzuları ətrafında müzakirələr aparılacaq.

Azərbaycan iqtisadiyyatı, ölkəmizin investisiya siyasəti və bu sahədə həyata keçirilən hüquqi və institusional islahatları diqqətə çatdıran nazir müavini konfransın investisiyalar sahəsində fikir mübadiləsinin aparılması, yeniliklərin öyrənilməsi və təcrübə mübadiləsi baxımından önəmini vurğulayıb. Bildirilib ki, Azərbaycanda yaradılmış siyasi və iqtisadi sabitlik, biznesə başlamaq üçün prosedurların sadəliyi, investorların hüquqlarının etibarlı qorunması, əlverişli coğrafi mövqe Azərbaycanı xarici investisiyalar üçün cəlbedici ölkəyə çevirib. 1995-ci ildən indiyədək Azərbaycan iqtisadiyyatına 233,5 mlrd. ABŞ dolları həcmində investisiya qoyulub ki, bunun 111 mlrd. ABŞ dollarını xarici investisiyalar təşkil edir.

UNCTAD-ın İnvestisiya Siyasətləri Departamentinin rəhbəri Corc Veber çıxışında təmsil etdiyi qurumun fəaliyyəti və müvafiq sahədə görülən tədbirlər barədə məlumat verib.

Sonra beynəlxalq investisiya siyasətinin müxtəlif istiqamətləri üzrə sessiyalar – "Beynəlxalq investisiya siyasətləri sahəsində son yeniliklər və əsas problemlər", "Beynəlxalq investisiya sazişləri rejimində islahatlar: səbəblər və həlli yolları" və "İri regional investisiya sazişləri: bölgə üçün təsirləri" keçirilib, beynəlxalq ekspertlərin mövzulara dair məruzələri dinlənilib, müzakirələr aparılıb, iştirakçıları maraqlandıran suallar cavablandırılıb.



# Parlamentin iqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin iclasında bir sıra qanun layihələrinə baxılıb



Oktyabrın 19-da Milli Məclisin iqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin növbəti iclası keçirilib.

Komitə sədri Ziyad Səmədzadə gündəlikdəki 13 qanun layihəsi barədə məlumat verib.

Əvvəlcə komitədə Vergi və İnzibati Xətalar məcəllələrində, "Azərbaycan Respublikasının 2003-cü il 17 iyun tarixli 478-IIQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Bələdiyyələrin vergi xidməti orqanı haqqında Əsasnamə"də, "Sığorta fəaliyyəti haqqında", "Qiymətli kağızlar bazarı haqqında", "Poçt haqqında", "Kommersiya sirri haqqında", "İnvestisiya fondları haqqında", "Banklar haqqında", "Bank olmayan kredit təşkilatları haqqında", "Reklam haqqında" qanunlarda təklif edilən dəyişikliklərə dair qanun layihələri müzakirə olunub.

Qeyd edilib ki, təklif olunan dəyişikliklər texniki xarakter daşıyır. Dəyişikliklərə əsasən, beynəlxalq müqavilələrə uyğun olaraq, xarici dövlətlərin hüquqi və fiziki şəxslərinin Azərbaycanda həyata keçirdikləri maliyyə əməliyyatları barədə məlumatlar Vergi Məcəlləsinin 76-1-ci maddəsinin tələbləri əsasında həmin xarici dövlətlərin səlahiyyətli orqanlarına təqdim edilməlidir.

Bildirilib ki, dəyişikliklərə müvafiq olaraq İnzibati Xətalar Məcəlləsinə müvafiq maddə əlavə edilir. Belə ki, vergi ödəyicisi kimi qeydiyyatda olmayan şəxslər tərəfindən vergi və maliyyə mübadiləsini nəzərdə tutan Azərbaycanın tərəfdar çıxdığı beynəlxalq müqavilələr əsasında xarici dövlətlərdən daxil olan sorğuların cavablandırılması üçün tələb olunan məlumat və sənədlərin müəyyən edilən müddətdə təqdim edilməməsinə və ya bilərəkdən təhrif olunmaqla təqdim edilməsinə görə fiziki şəxslər 50 manat məbləğində, hüquqi şəxslər 100 manat məbləğində cərimə edilir.

Sonra "Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında" Qanuna dəyişikliklər müzakirə edilib. Qeyd olunub ki, Azərbaycanda sahibkarlıq sahəsində aparılan yoxlamaların müddətinin 2021-ci ilin yanvarın 1-dək uzadılması nəzərdə tutulur. Qanuna iqtisadi, dövlət və qida təhlükəsizliyi ilə bağlı yeni bir maddə də əlavə edilir. İclasda "Daşınmaz əmlakın dövlət reyestri haqqında", "Avtomobil yolları haqqında" qanunlara dəyişikliklər edilməsi barədə qanun layihələrinə də baxılıb. Hər iki sənəddə təklif olunan texniki dəyişikliklər məqsədəuyğun hesab edilib.

Müzakirə olunan məsələlər barədə deputatlar fikirlərini səsləndiriblər. Sonra müzakirə edilən bütün qanun layihələri Milli Məclisin plenar iclasına tövsiyə olunub.

## Aydın Əliyev: DGK gələn il büdcəyə daxilolmalar üzrə proqnozu tam icra etmək niyyətindədir



Trend-in məlumatına görə, bunu jurnalistlərə DGK-nın sədri Aydın Əliyev deyib.

Onun sözlərinə görə, gələn il üçün gömrük daxilolmaları üzrə proqnoz 2,43 milyard manat təşkil edir: "Bu, 2017-ci il üçün gömrük daxilolmaları üzrə proqnozdan 180 milyon manat çoxdur. Əgər bu günədək biz dövlət büdcəsinə 2,13 milyard manat keçirdiyimizi nəzərə alsaq, fikrimcə, gələn il üçün proqnozu yerinə yetirə biləcəyik".

O, Azərbaycanda tütün məmulatları və spirtli içkilərin idxalına tətbiq olunan aksiz vergisinin artırılmasının yüksək bahalaşmaya gətirib çıxarmayacağını da qeyd edib. Onun sözlərinə görə, aksiz dərəcəsi qaldırılarkən vəziyyət ətraflı təhlil olunur: "Tütün və spirtli içkilər ilkin ehtiyac məhsulları deyil, ona görə də faiz artımı çox kəskin olmayacaq". Qeyd edək ki, aksiz vergisinin artırılması 2018-ci il üçün Vergi Məcəlləsinə dəyişikliklər layihəsi çərçivəsində nəzərdə tutulur.

O, həmçinin bildirib ki, Azərbaycan Dövlət Gömrük Komitəsi (DGK) Nazirlər Kabinetinə ölkəyə idxal edilən xammal və məhsullara tətbiq olunan rüsum faiz dərəcələrinin dəyişməsini nəzərdə tutan üçpilləli tarif sisteminə keçidlə bağlı təklif irəli sürüb. Onun sözlərinə görə, bu dəyişikliklərin qüvvəyə minməsi hökumətin qərarından asılıdır: "Artıq bir sıra nazirliklər bu təklifə müsbət reaksiya göstərib".

Qeyd edək ki, çoxpilləli sistemdən üçpilləli diferensial tarif sisteminə keçid ölkədə 0, 5 və 15 faiz dərəcələrinin qüvvədə qalmasını nəzərdə tutur.

## Çevik islahatlar proqramı sosial rifah halının qorunmasına istiqamətlənib

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində (ƏƏSMN) ölkəmizdə səfərdə olan Dünya Bankının Azərbaycanda rifah və rifahın paylanması ilə bağlı təhlil üzrə missiyası ilə görüş olub.

Nazirliyin İctimaiyyətlə əlaqələr şöbəsindən Trend-ə verilən məlumata görə, missiyanın məqsədi iqtisadi və sosial rifahın monitorinqi, sonuncu iqtisadi dəyişikliklərin rifaha təsirlərinin paylanması ilə bağlı təhlilin aparılması, ev təsərrüfatlarının iqtisadi şoklardan müdafiəsi məqsədilə siyasətin hazırlanması prosesinin məlumatlandırılması sahəsində Dünya Bankı ilə Azərbaycan hökuməti arasında gələcək əməkdaşlığın müzakirəsidir.

Görüşdə əmək və əhalinin sosial müdafiəsi naziri Səlim Müslümov Azərbaycan Prezidenti İlham Əliyevin respublikanın uzunmüddətli inkişafına xidmət edən siyasətinin sosialyönümlü olduğunu vurğulayıb. Nazir son illər qlobal miqyasda kəskin xarakter alan iqtisadi kataklizmlərin milli iqtisadiyyata təsirlərinin aradan qaldırılması üçün reallaşdırılan çevik islahatlar proqramının ilk növbədə sosial rifah halının, o cümlədən ailə təsərrüfatlarının bu təsirlərdən qorunmasına istiqamətləndiyini diqqətə çatdırıb: "Belə iqtisadi şəraitdə bir tərəfdən sosial müdafiə sisteminin gücləndirilməsi və ölkə əhalisinin əhəmiyyətli bir hissəsinə yönələn və ailə təsərrüfatlarının gəlir mənbələri sırasında olan sosial ödənişlərin (pensiya, müavinət, təqaüd və s.) artırılması təmin edilib, digər tərəfdən, yeni iş yerlərinin yaradılması prosesinin və aktiv məşğulluq tədbirlərinin gücləndirilməsi, xüsusən dövlət başçısının sosial məsuliyyətin bölüşdürülməsi təşəbbüsü üzrə bu proseslərin geniş miqyas alması iş yerlərinin itirilməsi və əmək bazarında gərginlik riskinin aradan qalxmasına imkan verib. Nəticədə, əmək resurslarının məşğulluğunda azalmaya deyil, artımın davam etməsinə nail olunub. Təsadüfi deyil ki, cari ilin 9 ayında da məşğulluq mərkəzlərinə iş üçün müraciət edənlərin sayı ötən ilin müvafiq dövrünə nisbətən təqribən iki dəfə azalıb. Cari ildə ölkə iqtisadiyyatının şaxələndirilməsi və qeyri-neft sektorunun 2,5 faiz artımı şəraitində yeni iş yerlərinin yaradılması prosesinin davam etdirilməsi işsizliyin aşağı səviyyədə saxlanmasını təmin edir".



S.Müslümov muzdla çalışan işçilərin sayında da artımın qeydə alındığını, rəsmi statistikaya əsasən, 2017-ci il sentyabrın 1-i vəziyyətinə ölkədə muzdla çalışan işçilərin sayının ötən ilin müvafiq dövrü ilə müqayisədə 6,1 min nəfər artaraq 1526,3 min nəfər təşkil etdiyini bildirib. Nazir həmçinin, əmək bazarında müsbət meyillərin davamı olaraq, bu ilin yanvar-avqust aylarında orta aylıq əməkhaqqının əvvəlki ilin müvafiq dövrünə nisbətən 7,4 faiz yüksələrək 524,7 manata çatdığını qeyd edib:

"Təbii ki, qeyd olunan pozitiv proseslər nəticə etibarilə ev təsərrüfatlarının gəlirlərinin artırılmasına və sabit rifah səviyyəsinin qorunub saxlanmasına imkan yaradır. Ümumilikdə, bu gəlirlərin dinamikasında ildən-ilə artım özünü göstərir. Buna misal olaraq, son 5 ildə, yəni 2011-2016-cı illərdə ev təsərrüfatlarında adambaşına düşən aylıq gəlirlər 55,3 faiz, o cümlədən bu gəlirlərin tərkibində muzdlu əmək fəaliyyətindən gəlirlər 58,6 faiz, kənd təsərrüfatından gəlirlər 45,5 faiz, sahibkarlıq və özünüməşğulluq fəaliyyətindən gəlirlər 58,1 faiz artıb. Ev təsərrüfatlarında adambaşına düşən aylıq gəlirlər sırasında pensiya və sosial müavinətlər, sosial yardım üzrə olan gəlirlər həmin dövrdə 48,6 faiz çoxalıb. Bu gəlirlərin digər mənbələr üzrə də artımı özünü göstərib. Ona da qeyd edək ki, son 5 ildə ev təsərrüfatlarında adambaşına düşən aylıq gəlirlərin son 5 ildəki artımı (55,3 faiz) ev təsərrüfatlarında adambaşına düşən aylıq istehlak xərclərinin artımını (53 faiz) üstələyib. Qeyd edilənlər ev təsərrüfatlarının iqtisadi şokların təsirlərindən müdafiəsi istiqamətində aparılan siyasətin müsbət nəticəsi kimi qiymətləndirilə bilər".

## "AzerGold"un nümayəndələri Türkiyədə mədənçilik sahəsini araşdırır




"AzerGold" QSC-nin nümayəndələri İzmir şəhərində Türkiyə Dağ-mədən Mühəndislər Palatası tərəfindən təşkil edilən VI Beynəlxalq Mədən Avadanlıqları və Texnologiyaları Konqresinə qatılıb.

Şirkətin mətbuat xidmətindən bildiriblər ki, QSC nümayəndələri "Mədən, təbii sərvətlər və texnologiyalar" sərgisində iştirak edərək, bu sahədə tətbiq edilən ən son yeniliklərlə tanış olublar. Səfər çərçivəsində "AzerGold" QSC-nin əməkdaşları Kışlıdağ filiz emalı sahəsi və Berqama-KOZA mədəninə də baş çəkib, ümumi iş prosesləri ilə tanış olub, təcrübə mübadiləsi aparıblar.

## Avstraliyanın mədənçiləri "Filizçay" yatağına maraq göstərirlər

Avstraliyanın mədənçiləri Balakəndə yerləşən "Filizçay" yatağına maraq göstərirlər.

"AzerGold" QSC-nin mətbuat xidmətindən bildirilib ki, oktyabrın 18-dən start götürən Azərbaycan-Avstraliya biznes-forumu çərçivəsində Bakıda səfərdə olan Avstraliyanın mədən şirkətlərinin nümayəndələri və bu ölkədən olan biznesmenlər "AzerGold" QSC-də olub, cəmiyyətin rəhbərliyi ilə görüşüb, tərəflər arasında potensial əməkdaşlıq imkanları müzakirə olunub.



Görüşdə Avstraliya-Azərbaycan Dostluq Assosiasiyasının prezidenti, "Hammond Legal" şirkətinin sahibi John Hammond, "Caravel Minerals" və "Forsys Metals" şirkətlərinin rəhbəri Marsel Hilmer, Avstraliya Maliyyə Qrupunun icraçı direktoru Brett McKeon, Azərbaycanın Avstraliyadakı fəxri konsulu Aydan Rzayeva, "AzerGold" QSC-nin idarə heyətinin sədri Zakir İbrahimov və cəmiyyətin digər rəhbər şəxsləri və aidiyyəti nümayəndələri iştirak ediblər. Tərəflər qarşılıqlı əməkdaşlıq məsələlərini – bu ölkənin təcrübəsindən "AzerGold" QSC-nin faydalanması imkanlarını ümumi müzakirə ediblər. Görüş zamanı qonaqlar resurs potensialına görə Avropada ikinci, dünyada ilk onluğa daxil olan "Filizçay" yatağına da böyük diqqət göstərib, Balakən rayonunda yerləşən yataqda aparılan işlərlə maraqlanıb.

Cəmiyyətlə Avstraliya şirkətləri arasında görüşlərin davam etdirilməsi, Azərbaycan təmsilçilərinin də Avstraliyaya səfər edərək, bu ölkənin mədənçilik sahəsi ilə əyani tanış olması barədə ilkin razılıq əldə olunub.



# Heydər Əliyev Naxçıvanda dövlət çevrilişi cəhdinin qarşısının alınmasında böyük müdriklik və siyasi iradə nümayiş etdirdi

## *Muxtar Respublikanın o zamankı Baş naziri, hazırda Xaçmaz RİH-in başçısı Şəmsəddin Xanbabayevin 25 il öncə baş verənlərə dair qeydləri*

Tarix boyu milli dirçəliş və ictimai tərəqqi yollarını dahi şəxsiyyətlər müəyyənləşdirmişlər. Mürəkkəb, təlatümlü çağlarda məhz belə şəxsiyyətlər irəli çıxaraq, liderlik və xilaskarlıq missiyasını yerinə yetirməklə öz xalqının və bəşəriyyətin taleyində silinməz izlər qoyublar. Məhz görkəmli ictimai-siyasi xadimlər zamanın çox çətin hərbi, iqtisadi və siyasi kataklizmlərindən xalqın xilas yolunu müəyyənləşdirməklə onun sonrakı taleyini də təyin etmək məsuliyyətini öz üzərinə götürürlər. **Bu gün müstəqillik və tərəqqi yolunda inamla addımlayan, azad və demokratik dövlət kimi dünya birliyində layiqli yer tutan, iqtisadi və siyasi islahatların uğurla həyata keçirildiyi Azərbaycan Respublikasının müasir tarixinin təqribən yarım əsrə bərabər dövrü və bu dövr ərzində qazandığı bütün uğurlar ümummilli lider, dünya şöhrətli siyasətçi, ulu öndər Heydər Əliyevin həyatı və fəaliyyəti ilə bilavasitə bağlı olmuşdur.** Heydər Əliyev Azərbaycan xalqını və dövlətini zamanın ən çətin sınaqlarından uğurla çıxararaq sosial-iqtisadi, mədəni-mənəvi tərəqqiyə qovuşdurmuşdur. O, öz mənalı ömrünü bütünlüklə xalqının tərəqqisi və rifahına, onun dünya xalqları arasında özünə layiq şərəfli yer tutmasına həsr etmişdir. Möhtərəm Prezidentimiz cənab İlham Əliyevin təbirincə desək, "Heydər Əliyevin liderlik keyfiyyətləri, onun xalqına, millətinə bağlılığı hər zaman böyük işlər görməsi üçün stimul olmuşdur".

Artıq hər kəsə məlum olduğu kimi, 90-cı illərin əvvəlləri Vətənimizin tarixinə hərbi, siyasi və ictimai təlatümlər dövrü, ölkədə xaos, hərcmərclik və özbaşınalığın tüğyan etdiyi bir dövr kimi düşüb. O dönəmdə hakimiyyət başında olan və hakimiyyətə can atan bir para təcrübəsiz, səriştəsiz və başıpozuq kadrların həm fəaliyyəti, həm də fəaliyyətsizliyi ucbatından dövlət müstəqilliyi yoluna yenicə qədəm qoymuş respublikamız üçün çox böyük itkilərlə nəticələndi. Görünür, o illərin real və dolğun mənzərəsini yaratmaq üçün həm tarixçi alimlərimiz, həm də ədəbiyyat xadimlərimiz hələ çox iş görməlidirlər. Hesab edirəm ki, o dönəmdə bilavasitə ulu öndər Heydər Əliyevin ətrafında, necə deyərlər, siyasi çarpışmaların episentrində olan insanlardan hər birinin gündəlik olaraq gördükləri, etdikləri, şahidi olduqları və nəhayət, yaşadıqları barədə xatirə və düşüncələri bu işdə qələm sahiblərimiz üçün çox zəngin və qiymətli faktoloji mənbə ola bilər.

Ulu öndərin yaxın ətrafında olan, hər gün, hər an ondan tapşırıqlar alan bir insan kimi mənim də ürəyim doludur və əlbəttə ki, olub-keçənlərin hamısı barədə xatirələri bir qəzet məqaləsində əhatə etmək mümkün deyil. Odur ki, mən bu qeydlərimdə 25 il öncə, 1992-ci ilin oktyabr ayında o zaman Azərbaycana rəhbərlik edən dağıdıcı qüvvələr tərəfindən Naxçıvanda dövlət çevrilişinə cəhdin qarşısının alınması yolunda ulu öndər Heydər Əliyevin nümayiş etdirdiyi siyasi iradə, qətiyyət, prinsipial mövqe və hakimiyyətlə xalqın birliyini təmin etmək bacarığı barədə bilavasitə iştirakçısı və şahidi olduğum bəzi məqamları oxucuların diqqətinə çatdırmağı özümə borc bilirəm.

Daxili işlər naziri İsgəndər Həmidovun 18 avqust 1992-ci il tarixli qanunsuz əmri ilə daxili işlər orqanlarında heç bir təcrübəsi və səriştəsi olmayan AXC fəalı S.Mustafayevin Naxçıvan MR daxili işlər naziri təyin olunması çətin iqtisadi blokada şəraitində yaşayan, Ermənistanla sərhəddə şiddətli atışmalar gedən, cəbhəçilərin və mütəllibovçuların tör-töküntülərinin ara verməyən təxribat və pozuculuq hərəkətlərinin baş alıb getdiyi Naxçıvanda ictimai-siyasi vəziyyəti daha da gərginləşdirdi. Xatırladım ki, Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi tərəfindən Naxçıvanda qanunsuz kadr dəyişiklikləri aparılarkən Ali Məclisin sədri İran İslam Respublikasında rəsmi səfərdə idi. Avqustun 26-da səfərdən geri qayıdan ulu öndər məsələ ilə bağlı Azərbaycan rəhbərləri ilə təkrar-təkrar telefon əlaqəsi yaratdı. Açığını deyim ki, İ.Həmidov və digərləri bu məsələ ilə əlaqədar Heydər Əliyevlə danışmaqdan qaçırdılar. İsa Qəmbər və Elçibəylə aparılan danışıqlar da nəticə vermədi. İ.Həmidovun qanunsuz əmrini icra etmək məqsədilə onun müavinləri R.Quliyev və M.Cəfərov Naxçıvana gəldilər və S.Mustafayevi güc tətbiq etmək yolu ilə də olsa nazir kreslosuna oturtmağa cəhd etdilər. Sentyabr ayının 16-da yaranmış böhranlı vəziyyət Naxçıvan Ali Məclisi Rəyasət Heyəti və Nazirlər Kabineti Rəyasət Heyətinin birgə yığıncağının müzakirəsinə çıxarıldı və müvafiq qərar qəbul olundu. Həmin yığıncağın qərarı ilə Naxçıvan daxili işlər nazirinin I müavini, polis polkovniki Ə.Ələkbərov böyük səs çoxluğu ilə Muxtar Respublikanın daxili işlər naziri təyin olundu. Beləliklə də, İ.Həmidovun Azərbaycan Respublikası Konstitusiyasına və Naxçıvan Muxtar Respublikasının Konstitusiyasına zidd olan qanunsuz əmri Naxçıvanda icra olunmadı və bununla bağlı respublikanın bütün aidiyyatı orqanlarına müraciətlər ünvanlandı. Mənəm-mənəmlik edərək hər kəsə meydan oxumaqda davam edən İ.Həmidov isə həmin müraciətləri nəzərə almaq əvəzinə, şəxsi heyətə divan tutmaq məqsədilə Naxçıvana komissiya göndərdi.

Naxçıvandan olan müraciətlərə Bakıda etinasız yanaşılması daha təhlükəli oyunlardan xəbər verirdi. Açıq-aydın hiss olunurdu ki, muxtar respublikada vəziyyəti gərginləşdirmək istəyənlərin ssenari müəllifləri və drijorları elə Azərbaycana rəhbərlik edən şəxslərdir. Təzada bir baxın, Naxçıvan rəhbərliyi bütün imkanları səfərbər edərək muxtar respublikanın sosial-iqtisadi problemləri ilə məşğul olduğu, əhalinin ərzaq, yanacaq, elektrik enerjisi, nəqliyyat xidməti ilə bağlı çətinlikləri aradan qaldırmaq üçün yollar axtardığı bir vaxtda Xalq Cəbhəsi xalqın pulu ilə alınmış silahları xalqa qarşı istifadə etməklə sabitliyi pozmaq və qırğınlar törətmək yolu ilə də olsa hakimiyyəti zəbt etmək planları qurmaqda idi. Təəccüblü haldır ki, Naxçıvan Xalq Cəbhəsinin Muxtar Respublikadakı destruktiv fəaliyyəti Azərbaycan Xalq Cəbhəsi və Azərbaycan Respublikasının dövlət orqanları tərəfindən nəinki dəf olunmur, əksinə, bəyənilərək, daha da qızışdırılaraq istiqamətləndirilirdi. Bütün bunları nəzərə alaraq 18 sentyabr 1992-ci il tarixdə Naxçıvan MR Ali Məclisi Xalq Cəbhəsinin silahlı dəstələrinin ləğv olunması və onlarda olan bütün silahların Naxçıvan ərazisində yerləşən hərbi hissələrə verilməsi barədə qərar qəbul etdi.

Mərkəzdən idarə olunan destruktiv qüvvələr o dərəcədə azğınlaşmışdılar ki, onlar Heydər Əliyevin siyasi karyerasının qarşısını almaq məqsədilə hətta Naxçıvanın statusunun dəyişdirilməsi, onun muxtar respublika kimi varlığına son qoyulması, Azərbaycan Respublikası Konstitusiyasının Naxçıvan MR haqqındakı bir sıra maddələrinin dəyişdirilməsi, Ali Məclisin hüquqlarının məhdudlaşdırılması zərurəti barədə ağlasığmaz təkliflərlə çıxış etməkdən belə çəkinmirdilər. Bu qüvvələr anlamırdılar ki, xüsusi coğrafi və geopolitik məkanda yerləşən Naxçıvanın 70 il öncə muxtar respublika statusu əldə etməsi tarixi nailiyyətdir və ona qarşı yönələn qəsd planları birbaşa Azərbaycanın milli dövlətçiliyinə, Naxçıvan vətəndaşlarının hüquq və mənafelərinə edilən qəsddir.

**Ulu öndər Ali Məclisin sədri işləyərkən, adətən, axşamlar evə çox gec gedirdi, səhərlər də iş otağına daxil olan kimi ən əvvəl mənimlə telefon əlaqəsi yaradır, vəziyyəti soruşurdu. O vaxtlar İran və Türkiyə ilə intensiv əlaqələrimiz vardı. Muxtar Respublikanın baş naziri kimi gedib-gələnlərlə təmasda olurdum. Ulu öndər, demək olar ki, hər gün bu əlaqələrin nə yerdə olduğu barədə məlumat alırdı. Oktyabrın 23-də də mənə zəng edərək heç nə soruşmadan:** – Şəmsəddin, sən dur elə indi Sədərəyə get, gör orada vəziyyət necədir, adamlara ürək-dirək ver, gör nə problemləri var, yardım et. Mən dərhal Sədərəyə yollandım. Məlum olduğu kimi, o vaxt Sədərək ermənilər tərəfindən davamlı olaraq atəş altında idi. Sədərəyin üstündəki yüksəklikdə mövqe tutduqlarından düşmənin atəş həmlələrinin qarşısını almaqda çətinlik çəkirdik. Atışma nəticəsində hər gün ölənlər, yaralananlar olurdu. Sədərəkdəki evlərin xeyli hissəsi ermənilərin ağır silahlardan açdığı atəş nəticəsində dağıdılmışdı. Belə olan halda yaralılara tibbi yardım göstərilməsi, evləri dağılan ailələrin xüsusi çadrlarda yerləşdirilməsi əsas qayğılarımızdan idi. Təzəcə bu işlərlə məşğul olmağa başlamışdım ki, sürücüm yaxınlaşaraq: - zəng etmişdilər, təcili danışmalısınız, - dedi. Mən dərhal maşına oturdum və komutator qıza Heydər Əliyevlə danışmaq istədiyimi bildirdim. Əlaqə yaranan kimi ulu öndər vəziyyətlə maraqlandı və sonra onun yanına gəlməyimi tapşırdı. Səsindən hiss elədim ki, nəsə bir qədər narahatlıq var.

90 kilometrlik Naxçıvan–Sədərək yolu pis vəziyyətdə olduğundan saat yarıma gəlib çatdım və dərhal ulu öndərin qəbuluna getdim. O dedi ki, cəbhəçilər Daxili İşlər Nazirliyi və Naxçıvan Televiziyasını tutaraq öz adamlarını ora yerləşdiriblər. Sən bir get Daxili İşlər Nazirliyinin qarşısına bax, gör orada nə var, nə yox. Amma nazirliyə daxil olma, kənardan müşahidə apar və gəl mənə məlumat ver. Sonradan duydum ki, ulu öndər ehtiyat edirmiş ki, birdən içəriyə daxil olsam, cəbhəçilər məni girov saxlaya bilərlər.

Mən poçtun binasınadək gəldim və sürücüyə dedim ki, orada gözləsin. Özüm isə poçtun qarşısındakı parka, Naxçıvan sakinlərinin "Böyük bağ" adlandırdığı əraziyə gəldim. Oraya çoxlu insan toplaşmışdı. Aralarında şəhər sakinləri ilə yanaşı, Nehrəm və Cəhri kəndlərindən gəlmiş çoxsaylı yaşlı insanlar da vardı. Toplaşanların ön cərgəsində dayanan əli çəlikli kişi isə Nehrəm kənd sakini, Böyük Vətən müharibəsi veteranı Abbas İsmayılov idi. Nehrəm sakinləri Hacı Muradəli Muradov, Qulu Tarquliyev, Əhmədalı Hüseynov və digər sayılıb-seçilən el ağsaqqalları da orada idi. Mən ətrafa göz gəzdirdikdən sonra birbaşa Daxili İşlər Nazirliyinin binasına daxil oldum. Doğrudur, ulu öndər mənə təkrar-təkrar demişdi ki, nazirliyin içərisinə girməyim, amma o anda öz-özümə düşündüm: bir halda ki, bu tapşırığı ulu öndər özünün və Baş nazirin müavinlərinə deyil, məhz mənə həvalə edibsə, deməli, mənə daha çox etibar edir. Odur ki, tərəddüd etmədən belə bir addım atdım. Nazirliyin birinci mərtəbəsi cəbhəçilərlə dolu idi. Mən rəhbərliyin oturduğu ikinci mərtəbəyə qalxdım. Daxili işlər nazirinin müavini, polkovnik-leytenant Eldar İbrahimov (o, Heydər Əliyevin sürücüsü Sabir kişinin oğlu idi) ikinci mərtəbənin dəhlizində yerə yıxılmış vəziyyətdə qalmışdı. Onu cəbhəçilər elə vurmuşdular ki, dörd dişi sınmışdı. Acınacaqlı hal idi ki, oradakılardan heç kim ona yardım etmirdi. Mən birbaşa nazirin otağına daxil oldum. S.Mustafayev çiynində pulemyot oturmuşdu nazir kreslosunda. Ətrafdakıların da hamısı avtomat və pulemyotlarla silahlanmış vəziyyətdə idi. İnsafən, heç mənə tərəf dönüb baxmadılar da. Daha sonra nazir müavininin otağına girdim. Orada da eyni mənzərə hökm sürməkdə idi. Mən DİN-in binasından çölə çıxanda Abbas kişi öndə olmaqla parkdakı izdiham içəri doluşdu və cəbhəçilərin hamısını tərkisilah edərək bayıra tulladılar, silahlarını isə bizə təhvil verdilər. Cəbhəçilərin qanunsuz hərəkətlərindən, xüsusən də onların Heydər Əliyevə olan münasibətindən narazı olan kütlə DİN-i boşaltdıqdan sonra televiziya binasına doğru istiqamət aldı. Daxili İşlər Nazirliyindən televiziya binasınadək olan təqribən 1200 metrlik məsafəni, demək olar ki, bir an içərisində qət edən izdihamın təzyiqi altında televiziya da cəbhəçilərdən tam olaraq təmizlənmiş oldu.

**Ulu öndər baş verənləri diqqətlə izləyirdi. Hər yarım saatdan bir hadisələrin gedişatı barədə ona telefonla məlumat çatdırırdım. O da öz növbəsində zəruri tapşırıq və tövsiyələrini verirdi. Beləliklə də, Azərbaycan rəhbərliyinin birbaşa himayəsi ilə Xalq Cəbhəsinin Naxçıvanda dövlət çevrilişi etmək planları Heydər Əliyevin müdrik siyasəti, Naxçıvan əhalisinin ona olan sonsuz məhəbbəti və sədaqəti sayəsində büsbütün alt-üst edilmiş oldu.**

Ulu öndər başda olmaqla, Vətəninə, dövlətinə ürəkdən bağlı olan, bu yolda hər an canından keçməyə hazır olan insanlar üçün son dərəcə gərgin və həyəcanlı anlarla başlayan **24 oktyabr günü hamımızın ürəyindən, könlündən olan nikbin bir sonluqla bitdi. Xalqın iradəsi, arzu və istəyi növbəti dəfə qələbə çalmış oldu.** Axşam çağı ulu öndər Ali Məclisin binası önünə toplaşan insanlar qarşısına çıxaraq onlara dövlətçiliyimizin qorunmasına göstərdikləri dəstəyə görə minnətdarlığını bildirdi və daha hər kəsin arxayın şəkildə öz evinə yollanmasını tövsiyə etdi. Amma insanlar hələ də arxayın deyildilər, ona görə də gecə yarıya qədər evlərinə getməyərək meydanda növbə çəkməkdə idilər. Mən isə Ali Məclisin sədrinin kabinetində ulu öndərlə üz-üzə əyləşərək gün ərzində gördüklərimi ona danışırdım. Hər şeyi danışdıqdan sonra çoxdan bəri ürəyimdə əzizləyə-əzizləyə saxladığım bəzi hisslərimi də o dahi insana çatdırmağı lazım bildim. Dedim ki, Heydər Əliyeviç (adətən, mən ona bu cür müraciət edirdim), dünyada hər şeyin bir ölçüsü var. Məsələn, alimlər müəyyən ediblər ki, Xəzər dənizinə sutka ərzində nə qədər su daxil olur. Alimlər bilirlər ki, bu suyun nə qədəri Volqa, nə qədəri isə Kür və Araz çaylarından daxil olur və s. Mənə elə gəlir ki, hər şeyin ölçüsü bilinən bu gen dünyada təkcə sədaqətin və səmimiyyətin ölçüsü yoxdur. Ona görə də sözlə heç cür izah edə bilmirəm ki, Naxçıvan camaatı, o toplumun bir nümayəndəsi olaraq şəxsən mən Sizə olan münasibətimdə nə qədər səmimi və sədaqətliyəm. Mən bu sözləri deyəndə o qamətini bir az da düzəldərək, sağ əlini havaya qaldırdı və iki barmağını bərkdən stola vuraraq: - "Şəmsəddin, onun da ölçüsü var!", - dedi. O, təkrarən əlini yuxarı qaldırmaqla yenidən barmaqlarını bərkdən stola vuraraq: - Şəmsəddin, bir daha deyirəm, onun da ölçüsü var! Onun ölçüsü vaxtdır, zamandır! Vaxt və zaman göstərəcək ki, kim kimi daha çox istəyir və kim kimə qarşı nə dərəcədə sədaqətlidir.

Doğrudan da, zaman göstərdi ki, kimlər ulu öndərə münasibətdə nə dərəcədə sədaqətlidir. Mənim düşüncəmə görə, müstəqil Azərbaycanın memarı və qurucusu olan ulu öndərə, onun müqəddəs ideallarına sədaqət elə həm də onun layiqli siyasi varisi, doğma Azərbaycanımızı hər gün yeni-yeni uğurlara aparan, onu hər zaman olduğundan daha da güclü və qüdrətli edən, gənc olmasına baxmayaraq, artıq dünya siyasətində özünün xüsusi yeri və dəsti-xətti olan möhtərəm Prezidentimiz İlham Əliyevə sədaqətli olmaq deməkdir. Əfsuslar olsun ki, vaxtı ilə Heydər Əlievin irəli çəkdiyi, qayğı göstərdiyi, rəhbər kadr kimi yetişmələri üçün çox zəhmət sərf etdiyi bəzi dönüklər sonradan nankorluq edərək, qara niyyətli qüvvələrin əlində oyuncağa çevrildilər. Görünür, sona qədər səmimi və sədaqətli olmaq da hər kişinin işi deyilmiş.

Oktyabrın 25-də Naxçıvan MR Ali Məclisinin fövqəladə sessiyası oldu. Sessiyada Xalq Cəbhəsinin oktyabrın 24-də Naxçıvanda həyata keçirmək istədiyi dövlət çevrilişi cəhdi geniş müzakirə olundu. Həmin sessiyada mən də çıxış edərək baş verənləri pislədim və bütün bunlara hüquqi qiymət verilməsini tələb etdim. MR-in daxili işlər naziri Ə.Ələkbərov, Televiziya və Radio Verilişləri Komitəsinin sədri E.Həbibov, Ali Məclisin deputatları N.Həsənov, E.Şirzadov, Y.Hacıyev, T.Əliyev, H.Cəfərov, A.Səfərov, E.Hüseynov, X.Abbasov, Ə.Talıbov, Azərbaycan Milli Məclisinin deputatlarından A.Həsənov, E.İbrahimov, qocaman həkim C.Cəfərov, yazıçı-jurnalist S.Təbrizli və digərləri də sessiyada çıxış edərək baş vermiş dövlət çevrilişi cəhdini qətiyyətlə pislədilər, onun sifarişçiləri, təşkilatçıları və iştirakçılarının müəyyən olunaraq çox ciddi cəzalandırılmasını tələb etdilər. Natiqlər çox əminliklə Naxçıvan əhalisinin bir daha bu cür təxribatlara yol verməyəcəyini bildirdilər.

Ali Məclisin sədri Heydər Əliyev fövqəladə sessiyada geniş nitq söylədi. Ulu öndərin nitqində Azərbaycan Xalq Cəbhəsinin, onun Naxçıvan təşkilatının dövlətçiliyimizə qarşı olan çirkin təxribat əməlləri, habelə İ.Həmidov başda olmaqla Azərbaycan hakimiyyətinin yüksək çinli məmurlarının Naxçıvanda hazırlanan dövlət çevrilişi cəhdinin bilavasitə sifarışçisi və təşkilatçısı olduqları, respublika Prezidenti Əbülfəz Elçibəyin isə baş verənlərə münasibətdə zəiflik və prinsipsizlik göstərdiyi qətiyyətlə pislənildi. O qeyd etdi ki, çevriliş cəhdində məqsəd təkcə muxtar respublikanın Daxili İşlər Nazirliyini və televiziyanı tutmaq deyil, bu, birbaşa Naxçıvan MR Ali Məclisinə və onun rəhbərliyinə qarşı yönəldilmiş təxribatdır. Mən bütün bunları sabitliyi pozmaq, qarışıqlıq yaratmaq cəhdləri kimi, Heydər Əliyevə qarşı təxribat kimi dəyərləndirirəm. Mənə gələn məlumat və siqnallardan aydın olur ki, Naxçıvan Xalq Cəbhəsində Heydər Əliyevin əleyhinə qızğın təbliğat gedir və ona qarşı terrorçuluq aktları hazırlanır...

**Xatırladım ki, Ali Məclisin sessiyası o zaman dövlət çevrilişi cəhdini pisləyən, onun təşkilatçıları və icraçıları barədə qanun çərçivəsində ciddi tədbirlər görülməsini tələb edən qərarlar qəbul etdi.**

Azərbaycan hakimiyyətinin zirvəsində oturan cəbhəçilər, xüsusən də özünü nazirdən daha çox qoçu obrazında aparan İ.Həmidov naxçıvanlı əlaltılarının yerli əhali tərəfindən tərkisilah olunaraq zəbt etmiş olduqları vəzifələrdən kənarlaşdırılması faktını heç cür həzm edə bilmirdi. Bu səbəbdən də, demək olar ki, hər gün Bakıdan Naxçıvana ultimatumlar gəlməkdə idi. Oktyabrın 24-də baş verənlərdən iki-üç gün sonra ulu öndər məni yanına çağıraraq bildirdi ki, deyirlər ki, İsgəndər Həmidov özünün silahlı qoçu dəstəsi ilə Naxçıvana gələrək oktyabrın 24-də baş tutmamış uğursuz dövlət çevrilişi planlarını sona çatdırmaq istəyir. Doğrusu, Bakıda belə çirkin planların hazırlandığından mənim də xəbərim var idi. Açıq deməliyəm ki, onların əlində hakimiyyət olmasına baxmayaraq, Heydər Əliyevdən bərk qorxurdular. Nə qədər küt və səbatsız olsalar belə anlayırdılar ki, Azərbaycan xalqının Heydər Əliyevə olan sevgisi, sədaqəti və inamı, xüsusən də Naxçıvan əhalisinin qətiyyətlə müdafiə etməsi onu hakimiyyətin zirvəsinə doğru aparır. Ona görə də Azərbaycan Xalq Cəbhəsinin ifrat qanadı, həqiqətən də, Heydər Əliyevi siyasi səhnədən kənarlaşdırmaq naminə hər şeyə hazır idi. Amma biz də boş dayanmamışdıq. Yəni, Naxçıvanın da dövlətçiliyimizin qarantı olan öz xilaskar oğlunu hər cür təxribatlardan qorumaq üçün zəruri qabaqlayıcı tədbirlərdən ibarət planları vardı. Odur ki, mən ulu öndərə bildirdim ki, nə İsgəndər, nə də onun dəstəsi Naxçıvan torpağına ayaq basa bilməzlər. Biz buna yol vermərik. Ulu öndər mənalı-mənalı mənə baxaraq dedi: - Nəyə arxayınsan ki, belə ürəkli danışırsan?! Dedim ki, Heydər Əliyeviç, bizim Bakıdakı adamlarımız tərəfindən İsgəndərin hər addımı izlənilir. O, hansı dəqiqə Naxçıvana gəlmək üçün Binə Hava Limanına yollansa, bizə dərhal xəbər verəcəklər, biz də qabaqlayıcı tədbirləri dərhal işə salacağıq. Ulu öndər sözümü kəsərək: - Şəmsəddin, sizin o qabaqlayıcı tədbirləriniz nədən ibarətdir?, - deyə soruşdu. Dedim ki, Heydər Əliyeviç, İsgəndər bura ancaq təyyarə ilə gələ bilər. Onun təyyarəsi haraya enəcək? Naxçıvan Hava Limanında bir qarış da olsun boş yer yoxdur. Naxçıvan əhalisi, onlara məxsus texnika hava limanındadır. Hətta uçuş zolağı belə bütünlüklə doludur. Yəni, indiki halda Naxçıvan Hava Limanına təyyarənin eniş edə bilməsi qeyri-mümkündür.

**Oktyabrın 26-da Bakıdan məlumat aldıq ki, bir gün sonra, yəni ayın 27-də İsgəndər Həmidov dəstəsi ilə Naxçıvana gəlir. Bu xəbəri eşidən Nehrəm camaatı, onlara qoşulan şəhər ictimaiyyətinin nümayəndələri yaba və ağac dəyənəklərlə silahlanaraq hava limanına axışdılar. Dəstənin önündə gedən veteran və ağsaqqallar Heydər Əliyevin portretini başları üzərinə qaldıraraq uca səslə bəyan etdilər ki, əgər İsgəndər Həmidov Naxçıvana gəlsə, onu şəxsən özümüz yaba və dəyənəklə qətlə yetirəcəyik.**

Naxçıvan Hava Limanı insan izdihamı və çoxsaylı texnika ilə tam olaraq dolmuşdu. İsgəndər və onun dəstəsi isə Binə Hava Limanında Naxçıvana gəlmək üçün məqam gözləyirdi. O, 48 saat Binə Hava Limanında qalsa da, Naxçıvandakı durumu bildiyindən oraya gəlməyə cəsarət etmədi və ayın 28-də silahlı qoçuları ilə birlikdə, necə deyərlər, suyu süzülə-süzülə geri döndü. Bununla da ulu öndər Heydər Əliyevin qətiyyəti və müdrikliyi sayəsində Naxçıvanda qan tökülməsinin qarşısı alındı. Azərbaycan Xalq Cəbhəsinin hakimiyyəti zorakı üsullarla ələ keçirmək planları tam olaraq boşa çıxdı. Ulu öndər Heydər Əliyevin Naxçıvandan başlayan xilaskarlıq missiyası sonda, bütövlükdə, Azərbaycan dövlətçiliyinin xilası ilə nəticələndi.

# UNEC-də "Elm aylığı": "Vergi siyasəti və iqtisadi inkişaf"



UNEC-də "Elm aylığı" çərçivəsində Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) müxbir üzvləri ilə görüşlər davam edir.

Növbəti görüş professor Akif Musayev ilə olub. Görüşdə UNEC-in professor-müəllim heyəti, doktorantlar, gənc tədqiqatçı və magistrlər iştirak edib. AMEA-nın müxbir üzvü, professor Akif Musayev "Vergi siyasəti və iqtisadi inkişaf" mövzusunda məruzə ilə çıxış edib. Ölkə iqtisadiyyatının dünya iqtisadi məkanına inteqrasiya etməsi üçün düzgün vergi siyasəti aparılmasının əhəmiyyətindən danışan A.Musayev məhz ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycanda ən müasir tələblərə cavab verən vergi sisteminin yaradıldığını vurğulayıb. İqtisadi siyasət konsepsiyasının ayrılmaz tərkib hissəsi olan vergi siyasəti və vergi sisteminin müasir standartlar əsasında formalaşdırıldığını qeyd edib. Prezident İlham Əliyevin uğurla davam etdirdiyi vergi siyasəti nəticəsində vergi qanunvericiliyinin mütəmadi olaraq təkmilləşdirildiyini iştirakçıların diqqətinə çatdıran iqtisadçı alim 2001-ci ildən tətbiq edilən sadələşdirilmiş vergi sisteminin kiçik biznesin inkişafına və bütövlükdə ölkə iqtisadiyyatının səmərəliliyinin artırılmasına xidmət etdiyini bildirib. O, vergi siyasətinin qarşısında duran əsas vəzifələrdən birinin dövlət xərclərinin maliyyələşdirilməsi olduğunu qeyd edib.

A.Musayev məruzəsində vergi tənzimlənməsi, vergi dərəcələri və vergi yükünün optimal həddinin müəyyən edilməsi, vergi və güzəşt azadolmaları, vergidən yayınmanın qarşısının alınması yollarından danışıb.

Devalvasiyanın büdcənin vergi gəlirlərinə təsiri yolları və ölkənin vergi gəlirlərinin neftdən asılılığını riyazi düsturlarla təhlil edib.

Görüşün sonunda professor Akif Musayev UNEC-də keçirilən "Elm aylığı"nda "Vergi siyasəti və iqtisadi inkişaf" mövzusunda məruzə ilə çıxış etdiyinə görə Fəxri Fərmanla təltif olunub.

# Vergilər naziri vətəndaşları qəbul edib



Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırıq və tövsiyələrinə uyğun olaraq, mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri bölgələrdə vətəndaşları qəbul edir, onların qarşılaşdığı problemlərin həllinə köməklik göstərirlər. Növbəti belə qəbul oktyabr ayının 20-də vergilər naziri Fazil Məmmədov tərəfindən Ağcabədi rayonunda Ağcabədi, İmişli, Bərdə, Tərtər, Xocalı və Xocavənd rayonlarından olan vətəndaşlar üçün keçirilib. Qəbulda Vergi Məcəlləsinə edilmiş son dəyişikliklər, vergilərin hesablanması, ödənilməsi, əmək müqavilələrinin bağlanması, vergi borcları, vergi nəzarəti tədbirləri sahəsində sahibkarların qarşılaşdıqları problemlər, əməkhaqqı fondundan ödənilən icbari ödənişlər, vergi ödəyicilərinə göstərilən xidmətlər, vergi orqanlarına işə qəbul, yerli (bələdiyyə) vergilərin toplanması prosesində rast gəlinən müxtəlif çətinliklər və digər məsələlərlə bağlı vətəndaşların müraciətlərinə baxılıb.

Qəbul zamanı qaldırılan problemlərin əksəriyyəti yerindəcə həll olunub, müraciətlərin bir qismi nəzarətə götürülüb, digərlərinin araşdırılması və lazımi tədbirlərin görülməsi ilə bağlı müvafiq tapşırıqlar verilib. Qəbula gələn vətəndaşlar onlar üçün yaradılmış bu imkandan razı qaldıqlarını bildiriblər.

# Vergilər Nazirliyinə işə qəbul imtahanı keçirilib



Oktyabrın 21-də Vergilər Nazirliyi Dövlət İmtahan Mərkəzi ilə birlikdə vergi orqanlarında işə qəbulla bağlı test imtahanı keçirib. Vergilər Nazirliyi tərəfindən mövcud vakant vəzifələrə işə qəbul üzrə növbəti müsabiqə elan edilib.

Müsabiqəyə sənəd qəbulu 30 avqust 2017-ci il tarixdən 13 sentyabr 2017-ci il tarixədək elektron ərizə formasında aparılıb. Müsabiqə elanı KİV-də, o cümlədən Vergilər Nazirliyinin rəsmi internet saytında, habelə "Facebook" və digər sosial səhifələrdə yerləşdirilərək, ictimaiyyətə açıq elan edilib. Elanda sənəd qəbulu, müsabiqənin keçirilməsi şərtləri və qaydaları barədə ətraflı məlumat öz əksini tapıb. Test imtahanına namizədlərin daha yaxşı hazırlaşmağına imkan yaratmaq məqsədi ilə test imtahanında istifadə olunan sualların tərtib edildiyi ədəbiyyat siyahısı nazirliyin internet saytı vasitəsi ilə namizədlərə çatdırılıb. Müsabiqədə iştirakla bağlı 1480 nəfər vətəndaş müraciət edib, onlardan vakant vəzifələrin tələblərinə uyğun olan 985 nəfəri namizəd qismində müsabiqəyə buraxılıb.

Müsabiqə test imtahanı və müsahibə olmaqla iki mərhələdən ibarət keçirilir. Qanunvericiliyə uyğun olaraq, test imtahanında uğur qazanmış namizədlər müsahibənin ikinci mərhələsinə – müsahibəyə buraxılacaqlar. Müsahibələrdə namizədlərin ümumi dünyagörüşü, onların müvafiq sahədə bilikləri və onları tətbiq etmək bacarıqları yoxlanılır. Müsahibələrdə şəffaflığın təmin edilməsi üçün müsahibə kollegial şəkildə – Müsabiqə Komissiyası tərəfindən aparılır, müsahibələrdə audio-video çəkilişdən istifadə edilir. Müsahibənin nəticələri nazirliyin internet saytı vasitəsi ilə ictimaiyyətə açıqlanır.

Müsahibədə uğur qazanan namizədlər dövlət vergi orqanlarının ehtiyat kadrlar siyahısına daxil ediləcək və onların vakant vəzifələrə təyinatı üzrə müvafiq tədbirlər görüləcəkdir. İmtahanın nəticələri nazirliyin internet saytı vasitəsi ilə ictimaiyyətə elan ediləcək.

# Özünəxidmətə keçid meyarı tətbiq edilir



Statistikaya əsasən, Azərbaycan əhalisinin 70 faizi internet istifadəçisidir. İnternet bu gün təkcə əlaqə və ünsiyyət vasitəsi kimi deyil, həm də mallar, xidmətlər təqdim olunan platforma kimi çıxış edir. Dövlət qurumları, özəl şirkətlər öz xidmətlərini daha çox elektron formada təqdim etməyə üstünlük verirlər. Vergilər Nazirliyinin Vergi ödəyicilərinə xidmət və şəffaf vergi partnyorluğu departamenti elektron xidmətlərdən sərbəst istifadə səviyyəsini əks etdirən özünəxidmətə keçid meyarının tətbiqinə başlayıb. Departamentin Xidmətin təşkili idarəsinin direktoru, baş vergi xidməti müşaviri Azər Şirinovla müsahibədə bu sahədə görülən işlər nəzərdən keçirilir.

**- Azər müəllim, məsafədən rabitə kanalları (internet portalı, elektron terminal, elektron köşk və s.) vasitəsilə elektron xidmətlərin göstərilməsi istiqamətində Vergilər Nazirliyinin hansı xidmətləri və yeni layihələri var?**

- Azərbaycan Respublikası Prezidentinin «Dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili sahəsində bəzi tədbirlər haqqında» 23 may 2011-ci il tarixli fərmanı ilə müəyyən edilmiş vəzifələrin yerinə yetirilməsi sahəsində böyük işlər görülmüşdür. Vergilər Nazirliyi tərəfindən qabaqcıl beynəlxalq təcrübəyə əsaslanan xidmət kanalları yaradılmış, yeni layihələr tətbiq edilməklə elektron xidmətlər genişləndirilmişdir. Hazırkı şəraitdə vergi orqanları ilə vergi ödəyiciləri arasında mükəmməl elektron əlaqələrin qurulmasında, bu xidmətlərin genişləndirilməsində yeni mərhələnin əsası qoyulmuşdur. Bu gün Vergilər Nazirliyi mərkəzi icra hakimiyyəti orqanları arasında ən çox elektron xidmət göstərən dövlət orqanı kimi fəaliyyət göstərir.

Nazirliyin vergi ödəyicilərinə xidmət strukturlarının əsas vəzifələri tətbiq edilən elektron xidmətlər barədə vergi ödəyicilərinin məlumatlandırılması, maarifləndirilməsi, elektron xidmətlərin təşviqi, bu xidmətlərdən istifadəyə kömək göstərilməsidir. Vergilər Nazirliyinin rəsmi internet səhifəsində ayrıca «Elektron xidmətlər» bölməsi yaradılmış, nazirliyin göstərdiyi bütün elektron xidmətlər, onların inzibati reqlamentləri, istifadə təlimatları, o cümlədən videotəlimatlar burada yerləşdirilmişdir.

Vergi ödəyicilərinə xidmət mərkəzlərinə müraciət edən şəxslərə elektron xidmətlərdən istifadə qaydası əyani şəkildə izah olunur, həmin mərkəzlər vasitəsilə elektron xidmətlərdən təkrar istifadə edən vergi ödəyiciləri ilə xüsusi təlimlər təşkil olunur. Xidmət mərkəzlərinin hamısında vergi ödəyicilərinin sərbəst istifadə edə biləcəyi, internetə çıxışı olan özünəxidmət kompüterləri quraşdırılmışdır.

**- Özünəxidmətə keçid necə reallaşdırılır?**

- Elektron xidmətlərimizdən sərbəst istifadənin təşviq edilməsi məqsədilə Vergi ödəyicilərinə xidmət və şəffaf vergi partnyorluğu departamenti tərəfindən özünəxidmətə keçid meyarı tətbiq olunur. Xidmət mərkəzlərində elektron xidmətlərdən istifadə etmiş vergi ödəyicilərinin sonrakı dövrdə xidmət mərkəzlərinə gəlmədən elektron xidmətlərdən sərbəst istifadə səviyyəsini əks etdirən bu meyar üzrə ilkin olaraq 2017-ci ilin ikinci rübü üçün hədəf 30% səviyyəsində müəyyən edilmişdir və növbəti dövrlərdə bu faiz göstəricisinin artırılması nəzərdə tutulur.

**- Departamentin Xidmətin təşkili idarəsi tərəfindən aparılan təhlil zamanı 2017-ci ilin 9 ayı ərzində xidmət mərkəzlərində qəbul edilmiş vergi ödəyicilərinin sayının ötən ilin müvafiq dövrü ilə müqayisədə 8%, göstərilmiş xidmətlərin sayının isə 5,5% artmasına baxmayaraq, son iki ayda (avqust, sentyabr) bu dinamikada azalma müşahidə olunmuşdur. Bunun səbəbini necə izah edərdiniz?**

- Son aylarda xidmət mərkəzlərinə müraciət edən vergi ödəyicilərinin sayının azalmasının səbəbləri araşdırılarkən belə qənaət yaranmışdır ki, buna daha çox aşağıdakı amillər təsir edir:

- Vergilər Nazirliyi tərəfindən davamlı şəkildə elektron xidmətlərin təşviqi, yeni elektron xidmətlərin təqdim edilməsi, vergi ödəyiciləri ilə fiziki təmasın məhdudlaşdırılması və daha çox elektron yazışmalara üstünlük verilməsi;
- Elektron sənəd mübadiləsinə qoşulanların, o cümlədən gücləndirilmiş elektron imza (ASAN imza) alanların sayının artması (cari ilin 9 ayı ərzində verilmiş ASAN imza sertifikatlarının sayı ötən ilin müvafiq dövrü ilə müqayisədə 2,2 dəfə artaraq 110.651 olmuşdur. 2013-cü ildən indiyədək 366.187 ASAN imza sertifikatı verilmişdir. Bu ilin ilk 9 ayı ərzində dövlət qeydiyyatına alınmış 8352 hüquqi şəxsin 5785-i və ya 69,3% -i, eləcə də 943 fiziki şəxs elektron formada vergi uçotuna alınmışdır);
- Departamentimizin elektron xidmətlərin tətbiqi ilə əlaqədar maarifləndirmə və təbliğat işlərini genişləndirməsi, ayrı-ayrı xidmətlər üzrə videotəlimatlar hazırlayaraq nazirliyin rəsmi internat saytında, KİV-də, sosial şəbəkələrdə yayması, xidmət mərkəzlərinə müraciət edən vergi ödəyicilərini elektron xidmətlərdən sərbəst istifadə barədə təlimatlandırması və onları özünəxidmətə cəlb etməsi.

**- Özünəxidmətə keçidin etimadı doğrultması və uğur qazanması üçün hansı tədbirlərin görülməsi nəzərdə tutulur?**

- Departamentimiz gələcəkdə də vergi ödəyiciləri tərəfindən elektron xidmətlərdən istifadənin genişləndirilməsi, bu sahədə özünəxidmətə keçidin təmin olunması istiqamətində müvafiq tədbirlərin görülməsini davam etdirəcəkdir. Bir faktı qeyd edək ki, təhlil zamanı cari ilin avqust ayında elektron xidmətlərdən istifadə üçün xidmət mərkəzlərinə müraciət etmiş fiziki şəxslərin 66,8%-nin 18-44 yaş arasında olduğu müəyyən edilmişdir. Həmin şəxslərin elektron xidmətlərdən istifadənin daha tez mənimsənilməsi imkanlarının olduğunu nəzərə alaraq, xidmət strukturları tərəfindən özünəxidmətə keçidin genişləndirilməsi məqsədilə maarifləndirmə tədbirlərinin, əlavə təlimlərin təşkili nəzərdə tutulmuşdur.

Məqsədimiz vergi ödəyicilərinin istək və tələblərinə uyğun xidmətlərin nazirliyin müvafiq informasiya mənbələrindən, o cümlədən rəsmi internet saytından, İnternet vergi idarəsindən və Çağrı Mərkəzindən əldə etmələrinə nail olmaqdır. Bütün bunlar xidmətlərin şəffaflıq şəraitində əlçatanlığına, həm vergi ödəyicilərinin, həm də vergi orqanlarının inzibatı xərclərinin azalmasına, vaxtdan daha səmərəli istifadə edilməsinə şərait yaradır.

**Müsahibəni hazırladı:
Fəxriyyə İKRAMQIZI**

# PAŞA Bank SIBOS 2017 beynəlxalq forumunda iştirak edib

Kanadanın Toronto şəhərində keçirilən beynəlxalq maliyyə forumu SIBOS 2017 işini 19 oktyabr tarixində tamamlayıb. Hər il keçirilən tədbir çərçivəsində aparıcı maliyyə təşkilatları və korporasiyaları, maliyyə sektoru üçün avadanlıq istehsal edən müəssisələr, proqram təminatı tərtibatçıları, müstəqil məsləhətçilər ilə təmsil olunan konfrans və ixtisaslı bank texnologiyaları sərgisi də təşkil olunur. Ötən illərdə olduğu kimi, PAŞA Bank tədbirdə təkcə Azərbaycandan deyil, həm də bütün regiondan yeganə eksponent bank qismində çıxış edib.

Bu il "Building for the Future" adı altında təşkil edilmiş konfrans bankçılıq, komplayens, qiymətli kağızlar və yeni texnologiyalar kimi 4 əsas tematik mövzular ətrafında qurulmuşdur. İştirakçılar maliyyə sektorunun inkişafı ilə bağlı geniş çeşidli mövzuları, o cümlədən maliyyə texnologiyalarının (Fintech) tətbiqi fonunda bank seqmentinin inkişafı, maliyyə əməliyyatlarının təhlükəsizliyinin təminatı, o cümlədən potensial kiber təhdidlərdən və mümkün mənfi nəticələrdən müdafiə kimi məsələləri müzakirə etmişdir. Konfransda çıxış edənlər və iştirakçılar qlobal maliyyə sənayesinin gələcəyi, o cümlədən pul və qiymətli kağızlar bazarlarında blokçeyn əməliyyatlarının perspektivləri, qlobal miqyasda ödəniş proseslərinin yaradılmasında yeni yanaşmalar və digər aktual mövzuların müzakirə edilməsinə xüsusi diqqət yetirmişlər.

PAŞA Bankın İdarə Heyətinin Sədri Taleh Kazımovun sözlərinə görə, SIBOS forumu iş icması tərəfindən sadəcə konfrans və nailiyyətlərin sərgisi kimi deyil, həmçinin maliyyə sektorunun inkişaf strategiyasının və qlobal perspektivlərinin müəyyən edildiyi peşəkar, eləcə də çoxşaxəli biznes platforması kimi qəbul edilir.

"Maliyyə mühiti sürətlə dəyişir. PAŞA Bank olaraq biz bu aspekti gözəl dərk edirik və bunu nəzərə alaraq rəqəmsal bank modelinin təqdim edilməsi üçün böyük hazırlıq işləri görürük. Rəqəmsal bank modelinə keçidi biz 2018-2020-ci illəri əhatə edən yeni İnkişaf strategiyamız çərçivəsində həyata keçirməyi planlaşdırırıq. İş dünyasının gələcəyinin formalaşdığı belə bir mötəbər tədbirdə biz Azərbaycandan və regiondan yeganə eksponent bank olaraq iştirak edirik və aparıcı maliyyə institutlarının təcrübələrini mənimsəməyi və öz əməliyyat bazarlarımızda daha təkmil biznes yanaşmalarını təqdim etməyi hədəfləyirik", - deyə T.Kazımov bildirib.

# Daha bir bank "Elektron hökumət" portalına qoşulub

"Elektron hökumət" portalı ilə tərəfdaşlıq edən banklar siyahısına daha bir bank əlavə olunub. Belə ki, artıq "AFB bank" da kredit əməliyyatları prosesinə elektron arayışları daxil edərək, vətəndaşlara "Elektron hökumət" portalı üzərindən daha rahat xidmət təqdim edəcək.

Portaldan bildirilib ki, bu elektron xidmət vasitəsilə vətəndaş banka getmədən, vaxt itkisinə yol vermədən onlayn rejimdə portala daxil olaraq, sistem tərəfindən avtomatik formalaşdırılan arayışı elektron şəkildə banka ünvanlaya bilər.

Elektron arayış müxtəlif dövlət orqanlarının elektron informasiya ehtiyatları əsasında hazırlanmış elektron sənəddir. Elektron arayışlar bank xidmətlərindən istifadə zamanı vaxt itkisinin qarşısını almaqla vətəndaşın rahatlığını təmin edir. Xidmətin digər üstünlüyü vətəndaşın işlədiyi müəssisədən arayış almaq zərurətinin aradan qaldırılmasıdır.

Xatırladaq ki, "Elektron hökumət" portalının vətəndaşlara göstərdiyi bu xidməti artıq 25-dən çox bank və kredit təşkilatları tətbiq edir.

Hazırda "Elektron hökumət" portalı tərəfindən 18 arayış vətəndaşlara təqdim olunur.



# Fond növbəti fərdi jurnalist yazıları müsabiqəsi elan edib

Oktyabrın 24-də Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun Müşahidə Şurasının növbəti iclası keçirilib. Müşahidə Şurasının sədri Həsən Həsənov iclası giriş sözü ilə açaraq gündəlik barədə məlumat verib:




**- 31 dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə keçiriləcək fərdi jurnalist yazıları müsabiqəsinin elanının müzakirəsi və təsdiqi.**

**- Cari məsələlər.**

Müşahidə Şurasının sədri Həsən Həsənov gündəlikdəki məsələ barədə məlumat vermək üçün sözü Fondun icraçı direktoru Vüqar Səfərliyə verib. İcraçı direktor 31 dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə keçiriləcək fərdi jurnalist yazıları müsabiqəsinin KİV-ə Dövlət Dəstəyi Konsepsiyasında əksini tapmış 19 istiqaməti əhatə etdiyini bildirib. V.Səfərli qeyd edib ki, oktyabrın 25-dən dekabrın 12-dək davam edəcək müsabiqənin şərtlərinə əsasən, I yerin qalibləri üçün 500, II yerin qalibləri üçün 400, III yerin qalibləri üçün 300 manat mükafatın verilməsi nəzərdə tutulub.

Müşahidə Şurasının üzvləri müzakirə olunan məsələ ilə bağlı rəy və təkliflərini bildiriblər. Şuranın sədri Həsən Həsənov, sədr müavini İlqar Hüseynov, üzvlərdən - Camaləddin Quliyev, Bəhruz Quliyev, Ramiz Əskər, İntiqam Hümbətov, Əvəz Rüstəmov və Ayaz Mirzəyev Fondun keçirdiyi fərdi jurnalist yazıları müsabiqəsinin jurnalistlərin peşəkarlıq səviyyəsinin yüksəldilməsi, yaradıcı əməyinin stimullaşdırılması və sosial vəziyyətinin yaxşılaşdırılması baxımından əhəmiyyətini diqqətə çəkiblər. Daha sonra müsabiqənin elanı bəzi redaktə xarakterli düzəliş və əlavələrlə səsə qoyularaq təsdiq edilib. Cari məsələlərin müzakirəsi zamanı icraçı direktor Vüqar Səfərli Fondun perspektiv fəaliyyət istiqamətləri barədə məlumat verib.

KİVDF
www.kivdf.gov.az

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu tərəfindən maliyyələşdirilən "Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi" layihəsi çərçivəsində çap olunub.**

# "Azproduct" MMC: İdxalın 60%-i həcmində istehsal gücünə malik müəssisə

Azərbaycanda balıqçılıq qədim tarixə malikdir. Hələ orta əsrlərdə balıqlardan hazırlanan məhsullar ticarətin əsas maddələrindən hesab olunurdu. Tarixə nəzər salsaq, görərik ki, XIX əsrin son rübündə, 1881-ci ildə Azərbaycanda iltizam sistemindən azad edilmiş balıqçılıq sənayesi yaradılmışdır. O dövrdə bu sahənin müəssisələri əsasən Kür çayının axarında, Salyan rayonunda cəmləşmişdi. 1884-cü ildə balıqçılıqda və Azərbaycan balıq sənayesində 3,5 min fəhlə və qulluqçu, 1900-cü ildə isə 6,4 min nəfər məşğul olmuşdur.

XX əsrin əvvəllərində Azərbaycan iqtisadiyyatının bu mühüm sahəsi iri inhisarçıların əlinə keçir. Birinci Dünya müharibəsi ərəfəsində ölkəmizin balıq təsərrüfatları və balıq sənayesi kapitalist inkişafının yüksək mərhələsində olmuşdur. Təkcə onu qeyd etmək kifayətdir ki, bu sahəyə qoyulan sərmayələrin, illik məhsul istehsalının həcminə, dəyərinə və fəhlələrin sayına görə balıq sənayesi neft sənayesindən sonra ikinci yerdə gedirdi. Bu istehsal sahələrində 60 mindən çox fəhlə məşğul idi. Bu məlumatlar XX əsrin əvvəllərində balıqçılığın və balıq sənayesinin sürətli inkişafını təsdiq edir.

Sovet hakimiyyəti illərində Azərbaycan SSR-də balıqçılıq inkişaf etsə də, balıq və balıq məhsullarının çox hissəsi ixrac olunur, SSRİ büdcəsinə böyük mənfəət gətirirdi. Biz balıq və balıq məhsullarının bəhrəsini ölkəmiz müstəqillik əldə etdikdən sonra görməyə başladıq. Hazırda qeyri-neft sektorunun inkişafı nəticəsində balıqçılıq sahəsi də sürətlə inkişaf edir, belə ki, ölkəmizin unikal təbiəti, Xəzər dənizi, gur dağ çayları balıq və balıq məhsulları istehsalında daha böyük nəticələrə nail olmağa imkan yaradır. Tarixə qısa səyahətdən aydın olur ki, balıqçılıq Azərbaycanda iqtisadiyyatın mühüm sahələrindən biri olub, hazırda yeni inkişaf mərhələsini yaşayır.

Onu da qeyd etmək lazımdır ki, ölkəmizdə balıqçılığın daha sürətli inkişafına nail olmaq üçün balıq yeminin istehsal olunması vacib idi. Neftçala Sənaye Zonasında Azərbaycanda ilk balıq yemi istehsalı zavodunun yaradılması da bu məqsədə xidmət edir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin məqsədyönlü iqtisadi siyasəti və sahibkarlığın inkişafına göstərdiyi dəstəyin nəticəsi olaraq, sahibkarlar Neftçala Sənaye Zonasında Azərbaycanda ilk olaraq balıq yemi istehsalı zavodu yaratmışlar. Ümumi dəyəri 12 milyon manat olan layihənin reallaşması üçün dövlət tərəfindən 5,9 milyon manat güzəştli kredit ayrılmış, zavodun sənaye zonasında yaradılmasının təşkili isə ilkin investisiya xərclərinə təqribən 30 faizədək qənaət etməyə imkan yaratmışdır. İllik istehsal gücü 25 min ton olan bu zavodun tikinti işləri başa çatmışdır. Neftçaladan başqa digər rayonlarda da sənaye üsulu ilə balıqçılığın inkişafına güclü təkan verilməsində bu zavod ciddi rol oynayacaq.

***"Azproduct" MMC - Neftçala Sənaye Məhəlləsinin iştirakçılarından biridir. Müasir texnologiyaların tətbiq edildiyi müəssisə balıq emalı və konservləşdirilməsi sahəsində fəaliyyət göstərəcək. İstehsal sahəsində ildə 7 milyon şərti banka konserv və 500 ton soyudulmuş təzə balıq istehsalı nəzərdə tutulur.***

Müəssisəyə 1,7 milyon manat investisiya qoyulub. Əlavə dövlət dəstəyi olaraq müəssisəyə İnvestisiya Təşviqi Sənədi təqdim edilib. Bu, müəssisənin təqribən 290 min manata qənaət etməsinə imkan verib.

Məmmədovlar ailəsi uzun illərdir balıqçılıqla məşğuldur. Bu ailə balıq ticarətində böyük təcrübəyə malikdir. 2013-cü ildən isə Maştağa qəsəbəsində icarəyə götürdükləri sexdə konserv istehsalı ilə məşğul olmağa başlamışlar. Ötən illər ərzində bu sahədə də xeyli təcrübə toplayıb bazarı öyrənmişlər. Hazırda Azərbaycanda onlardan başqa balıq konservləri istehsal edən müəssisə yoxdur. Müsahibimiz qardaşlardan biri, sahibkar Şamxal Məmmədovdur.

**- Şamxal müəllim, necə oldu ki, balıq məhsulları istehsal edən müəssisə - "Azproduct" MMC-ni yaratmağı qərara aldınız?**

- Təbii sərvətlərlə zəngin olan ölkəmizdə müxtəlif növdə balıqlar olsa da, konservləşdirmə müəssisəsinin olmaması bu biznesi yaratmağı zəruri edirdi. Bir neçə il əvvəl Neftçalada sənaye məhəlləsinin yaradılacağı xəbəri bizi çox sevindirdi. Bu rayonda müəssisə qurmaq çoxdankı arzumuz idi. Lakin infrastrukturun tikilməsi böyük xərclər tələb etdiyi üçün bu müəssisənin qurulmasını reallaşdıra bilmirdik. Ölkə Prezidenti cənab İlham Əliyevin Neftçala Sənaye Parkının yaradılması barədə 02 fevral 2015-ci il tarixli sərəncamı arzumuzu həyata keçirməyi sürətləndirdi.

Onu da qeyd edim ki, müəssisənin qurulması üçün Neftçalanın seçilməsinin bir neçə səbəbi var. Birincisi, Kür çayı Xəzər dənizinə Neftçala rayonunda qovuşur. Buna görə Neftçala rayonu şirin su və dəniz balıqlarının olduğu ərazidir. Respublikamızda ən zəngin balıq növləri bu rayon ərazisində və yaxınlığında yetişir. İkinci səbəb bu rayon ərazisində balıqçılıq üzrə kadrların çox olmasıdır. Çünki vaxtilə rayonda "Bankə" balıq kombinatı fəaliyyət göstərib və təxminən 2000-dən çox işçisi olub. Yeni müəssisə - "Azproduct" MMC-nin işə düşməsi Azərbaycana xaricdən balıq konservlərinin idxalının əvəzlənməsinə səbəb olacaqdır.

**- Məlumdur ki, indiyə qədər konservləşdirilmiş balıq məhsullarının çoxu Azərbaycana xarici ölkələrdən idxal edilirdi.** Bəs**, sizin müəssisə işə düşəndən sonra necə olacaq, yerli əhalini öz məhsullarımızı almağa nə sövq edəcək? İstehsal etdiyiniz məhsulların qiymətləri barədə nə deyə bilərsiniz?**

- Hazırda Azərbaycana konservləşdirilmiş balıq məhsullarının böyük hissəsi Avropa ölkələrindən və Rusiyadan idxal olunur. Biz apardığımız araşdırma nəticəsində öyrəndik ki, Rusiyanın balıq konservləri istehsalçıları xammalı əsasən Mərakeş və digər ölkələrdən idxal edir, sonra bu balıqları konservləşdirib Azərbaycan kimi ölkələrə ixrac edirlər.

Bazardakı qiymətləri araşdırdıqda isə aydın oldu ki, istehsal edəcəyimiz balıq konservlərini xarici ölkələrdən idxal olunan analoji məhsullardan orta hesabla 15% ucuz təklif edə bilərik. Ölkəmizin bu sahədə bir sıra mühüm üstünlükləri bizə bunu iddia etməyə əsas verir. Birincisi, Xəzər dənizində kilkənin və siyənəyin yaşayış əraziləri Azərbaycan sahilləri yaxınlığındadır. Kilkələr və siyənəklər sahildən təxminən 20-80 km uzaq məsafədə yaşayırlar.

Xammal ilə müəssisə arasındakı məsafənin yaxın olması isə həm xərcləri azaldır, həm də məhsulun keyfiyyətinin yüksək qalmasına imkan verir. Rusiya istehsalçıları isə Baltik dənizinin kilkələrindən istifadə edirlər. Baltik dənizinin kilkəsini almaq Xəzər dənizinin kilkəsindən baha başa gəlir.

Konserv istehsalında digər mühüm xammal tomatdır. Azərbaycanda tomat istehsal edən müəssisələr çoxdur, Rusiya isə tomatı idxal edir. Həm Azərbaycanda tomatın çox olması, həm də xammala yaxınlığımız məhsulun maya dəyərinin aşağı olmasını təmin edəcəkdir.



**- Bəs, Azərbaycan istehsalı olan bu məhsulların keyfiyyəti necə olacaq? Yerli balıq konservləri idxal olunan konservlərdən nə ilə fərqlənəcək?**

- Əvvəla, onu qeyd edim ki, devalvasiyalar nəticəsində xarici valyutaların bahalaşması yerli istehsalçıların xeyirinədir. Avronun bahalaşması səbəbindən Avropa istehsalçıları buraxdıqları konservlərin maya dəyərini aşağı salmaq üçün onların tərkibindəki balıq ətinin miqdarını azaldırlar. Biz öz laboratoriyamızda bazarda satılan balıq konservlərinin analizini aparmışıq. Müəyyən etmişik ki, Azərbaycan bazarına xaricdən idxal edilən əksər konserv məhsullarının tərkibində balıq ətinin payı təxminən 50%-dir. Düzdür, onlar bu barədə konserv məhsulunun üzərindəki etiketdə məlumat verirlər. Amma etiraf edək ki, alıcıların çoxu bu yazılara fikir vermir. Dünya standartlarına görə, balıq konservi məhsulunun tərkibində ət 75-80%, sous 20-25% olmalıdır. İdxal olunan balıq konservlərinin əksəriyyətində bu, 50:50 və ya 55:45 nisbətindədir. Azərbaycana konserv məhsullarının xeyli hissəsi Baltikyanı ölkələrdən idxal olunur və avro ilə alınır. Təbii ki, Azərbaycan bazarında məhsulun manat ilə qiyməti qalxır. Bizim məhsullarımız idxal konservlərindən ucuz olmaqla bərabər, tərkibinin təxminən 80%-i balıq əti, 20%-i sous olacaqdır.

**- Şamxal müəllim, bir qədər istehsal edəcəyiniz məhsullardan məlumat verin.**

- Müəssisəmizdə Xəzər kilkəsindən və Xəzər siyənəyindən konserv məhsullarının, "Preserv" məhsullarının və soyudulmuş məhsulların istehsalı nəzərdə tutulur. Birinci istehsal xəttində konserv və "Preserv" məhsullar (yağ, duz və ədviyyatlara qoyulmuş balıq məhsulları) istehsal olunacaqdır. Sovet dövründə Azərbaycandan Rusiya, Ukrayna və Qazaxıstan kimi ölkələrə ildə 20 milyon ədəd "Preserva" məhsulları göndərilirdi. Bu məhsullar da Xəzər siyənəyindən və kilkəsindən istehsal olunacaqdır. Çəkisi 1 kq civarında olan Xəzər siyənəyi Atlantik okeanının siyənəyindən təxminən 40% böyükdür. Böyük balıqlar da daha qiymətli hesab olunur. Eyni zamanda, Xəzər siyənəyi kimyəvi tərkibinə görə də zəngindir. Biz öz məhsullarımız ilə ölkəmizə idxal olunan Atlantik siyənəyindən hazıranmış məhsulları da əvəzləyəcəyik.

**- Qablaşdırma ilə bağlı problemi** həll edə bilmisinizmi?- Çox təəssüf ki, hazırda istehsal olunan məhsulun maya dəyərində payı xeyli yüksək olan dəmir qabların ölkəmizdə istehsalı təşkil edilməmişdir. Hörmətli Prezidentimiz İlham Əliyev müəssisəmiz ilə tanış olarkən bu məsələyə toxunub bildirmişdi ki, dəmir taralarda idxaldan asılılığa son qoyulmalıdır. Əgər qablar da ölkəmizdə istehsal olunarsa, konserv məhsullarımızın maya dəyəri xeyli aşağı düşəcək və məhsullarımızın rəqabət qabiliyyəti daha da artacaqdır.

**- Müəssisənin istehsal gücü barədə nə deyə bilərsiniz?**

- Təzə balıqların soyudulması və qablaşdırılması xəttinin gücü illik 500 ton, konserv xəttinin gücü isə bir növbədə illik 7 milyon ədəddir. Azərbaycana il ərzində təxminən 12 milyon ədəd balıq konservləri idxal olunur. Bizim müəssisə idxalın təxminən 60%-i həcmində istehsal gücünə malikdir. Sənaye məhəlləsində istehsal sahəsini genişləndirmək üçün əlavə sahəmiz də var. Bu sahədə yeni xətlərin qurulması ilə istehsal gücümüzü 2 dəfə artıra bilərik. Eyni zamanda, ikinövbəli iş rejiminə keçməklə də istehsal gücümüzü qaldıra biləcəyik.

**- Yəqin ki, gələcəkdə bu konservlərin ixracını da planlaşdırırsınız…**

- Əlbəttə, artıq istehsal olunacaq məhsulların ixracı ilə bağlı ilkin razılaşmalar da əldə etmişik. Müəssisənin hədəfi xarici bazarlar olacaq. Bu yaxınlarda Rusiyada balıq konservi məhsulları üzrə ən böyük distributor şirkəti ilə razılaşma əldə etdik. Həmin şirkət Rusiyada iri satış şəbəkələrini balıq konserv məhsulları ilə təmin edir. Növbəti mərhələ Rusiya Federasiyasının Baytarlıq və Fitosanitar Nəzarəti Federal Xidmətində akkreditasiyadan keçməkdir. Müəssisə istifadəyə verildikdən sonra akkreditasiya üçün müraciət olunacaq və xidmətin nümayəndələrini Azərbaycana dəvət edəcəyik.

Eyni zamanda, məhsullarımızın Gürcüstana ixracı üçün bu ölkənin balıq məhsulları üzrə ən böyük distributor şirkət ilə razılaşma əldə etmişik.

**- Bəs, yerli bazarda məhsullarınızı nə vaxt görəcəyik?**

- Müəssisəmizin buzla qablaşdırılmış məhsullarının Pirallahı rayonunda yerləşən "Nərəkənd" kompleksinin nəzdində yaradılmış balıq bazarında geniş satışını təşkil etməyi nəzərdə tutmuşuq. Bu gün restoranlar şirkətləri balıqları satış mərkəzindən almağa böyük ehtiyac duyurlar. Bazar Bakıya ən yaxın yerdə, təhlükəsiz, təzə balıq satışı mərkəzi olacaqdır. Bununla yanaşı, dövlət müəssisə və təşkilatları da "Azproduct"un alıcıları olacaqlar. Artıq "Azproduct" MMC "Ərzaq Məhsullarının Tədarükü və Təchizatı" ilə balıq konservlərinin satışına dair 2,2 milyon manat dəyərində müqavilə də imzalayıb. Eyni zamanda, hazırda Müdafiə Nazirliyi balıq konservlərini idxal edir. Ümid edirik ki, Müdafiə Nazirliyinə də balıq məhsullarının satışına nail olacağıq. Sonda demək istərdim ki, bu ilin sonuna qədər müəssisəmiz işə düşəcək. Hələlik 40 nəfər işçimiz var. Gələcəkdə balıqların yetişdirilməsi layihəsini reallaşdırmağı nəzərdə tuturuq. Əminəm ki, bu iş də rentabelli olacaq.

**- Maraqlı və** ətraflı **müsahibəyə görə sağ olun. Sizə və rəhbərlik etdiyiniz müəssisəyə uğurlar diləyirik.**

**Müsahibəni apardı:**
**Yeganə MƏMMƏDOVA**







*"Актуальное интервью"* – один из самых рейтинговых проектов Агентства теленовостей, который вот уже несколько лет дважды в неделю выходит в эфир телеканалов "Беларусь 1" и "Беларусь 24". Журналисты задают актуальные вопросы представителям власти, политикам, успешным бизнесменам, знаменитым деятелям культуры и искусства, известным киноактёрам и артистам, спортсменам, представителям шоу-бизнеса.




***Он предложил миру пересмотреть подходы к производительности, а азербайджанским банкам - поделиться прибылью с клиентами. Ученый, чьи научные труды лежат в основе ведущих экономик - Зияд Самедзаде - гость программы "Актуальное интервью". Ученый и политический деятель известен принципиальными взглядами на процессы глобализации. Рецепт энергетического успеха даже в постнефтяную эру от Зияда Самедзаде.***

***Доктор экономических наук, профессор и академик Зияд Самедзаде. Ученый чьи научные труды лежат в основе ведущих отраслей экономической науки не только в Закавказье. Он возглавляет комитет по экономической политике, промышленности и предпринимательству Милли меджлиса Азербайджана, вице-президент Международного союза экономистов, президент союза экономистов Азербайджана.***

***Его монографию "Этапы большого пути: экономика Азербайджана за полвека её реалии и перспективы ученые мира оценили как подлинно энциклопедический, уникальный труд.***

**Ведущая Алеся Высоцкая:**
***Мы говорим о том что настало то самое время когда азербайджанский бизнес может прийти на белорусскую землю создать здесь свои опорные точки и уже с этой продукцией выходить на рынки третьих стран в том числе и на территории ЕС. Как вы оцениваете взаимодействие стран в рамках евразийского экономического союза и как это должно быть в идеале так сказать по науке?***

**З.Самедзаде:**
В условиях глобализации когда целиком интенсивно развиваются мировые интеграционные процессы региональные площадки является объективной необходимостью. Международные вопросы должны решатся с учетом исключительно национальных интересов. Нам диктуют иногда надо убрать все, надо расширить границы, но в условиях когда глобальные риски растут учёт национальных интересов является объективной необходимостью. Без учета этих интересов мы можем столкнуться с серьезными трудностями.

**Ведущая:**
***На многих международных площадках сейчас все громче звучат заявления о том что мир стоит перед новыми вызовами и угрозами и они в том числе касаются экономической безопасности и говоря об СНГ на саммите в Сочи белорусский лидер указал на нерасторопность организации в принятии решений. Как Вы считаете нужна ли реформа СНГ?***

**З.Самедзаде:**
СНГ солидный орган он объединяет независимые государства, это важная структура, но этот орган нужно обеспечить эффективной деятельностью, а это получается когда законы принятые и отвечающие национальным интересам должны быть соблюдены в рамках евразийского союза. Возникают многие вопросы – налогового характера, протекционизм. Одним словом нужна единая позиция, единый подход. Александр Григорьевич Лукашенко совершенно правильно подчеркнул то что парламентарии должны активнее участвовать в этих процессах, а то получается собираются парламентарии стран СНГ, обсуждает общие вопросы, но никаких конкретных результатов нет… Каждая стана имеет свои определенные проблемы но к этим проблемам надо подходить первую очередь исходя из национальных интересов той стороны которое поднимает вопросы, а также эти вопросы должны соответствовать принципам союза. Участники этого союза равны и между ними не должны быть закрытые вопросы – это главный критерий рационального существования СНГ.

**Ведущая:**
***Вы знаете по себе если рядом неспокойно, то это мешает в том числе развитию экономики на континенте, растёт напряжённость и нужны активные действия. Минск выступает с инициативой Хельсинки 2 и предлагает навести мосты между Востоком и Западом. Как вам кажется какие усилия сейчас должен предпринять мир?***

**З.Самедзаде:**
Мир, во первых должен принять конкретные меры по ликвидации очагов в конфликтных регионах, вы знаете ситуацию на ближнем востоке – в Ливии, Сирии, Египте, Ираке… В результате чего возникли эти глобальные конфликты которые потрясли весь мир? Из-за не учета национальных интересов, из-за тех сил которые они хотели показаться более могущественными, диктовать свои условия… Сегодня миру нужны твёрдые лидеры, которые защищают свою страну.

Мне симпатизирует позиция А.Лукашенко, который выступая в Сочи и встречаясь с нашим президентом и другими главами государств ещё раз указал что в нашем несвободном мире нужен консенсус.

**Ведущая:**
***Реальная экономика это то что всегда подтягивает за собой большую политику. Ученые по своему призванию они подсказывают направлении, вектор и как нужно двигаться дальше. С вашим именем связывают формирование целых отраслей экономической науки. В белорусской модели развития есть примеры для других стран***

**З.Самедзаде:**
Модель экономического развития Беларуси заслуживает самых положительных оценок, эта модель не фетишизировала рыночную экономику. Рынок безусловно играет важную роль, это свобода, определенная либерализация.. не полная либерализация, не полная экономическая свобода а именно оптимальная. Отдельные эксперты из-за рубежа диктовали - рыночный механизм, никаких крупных предприятий, никакого участия государства в реформировании экономики. Те государства, те страны СНГ, которые пошли этим путем получили не благоприятные показатели, сегодня эти страны остались в тени. Беларусь наоборот сохранила свои предприятия, модернизировав экономическую модель. Мы считаем что конечно реальный сектор должен иметь свое интенсивное развитие это сферы услуг, сельское хозяйство, заводы, фабрики где создается трудом миллионов людей реальные ценности. Я в своей книге о Глобальной мировой экономике достаточно глубоко изучил опыт реформирования белорусской экономики… У вас самый высокий показатель здравоохранения, низкий уровень детской смертности, положительная динамика средней продолжительности жизни. Опыт белорусского реформирования экономик я бы сравнил с опытом Германии, Японии и других развитых стран.

**Ведущая:**
***Беларусь взяла курс на построение Айти страны. Парк высоких технологий, великий камень примеров можно приводить много но мы не одни этим занимаемся… Как нам сегодня выдержать эту жесткую конкуренцию?***

**З.Самедзаде:**
21 век это век конкуренции. Беларусь сегодня не только на постсоветском пространстве, но и в Европы и занимает одно из ведущих мест по объему технологической продукции. Это крупная цифра - полтора миллиарда долларов. Страна идёт по пути интенсивного развития информационных технологий. Это завтрашний день. Миллиарды долларов большие страны вкладывают в информационные технологии, фактор человеческого капитала сегодня играет важнейшую роль. Опыт Беларуси и в этом направлении заслуживает самой высокой оценки.

**Ведущая:**
***Ваша любимая тема Китай. Эта страна уже начинает теснить по экономике США, весь мир заговорил сегодня о восстановлении Великого Шёлкового Пути. Беларусь в этом проекте уже занимает важное место. Вы долгое время изучали китайское экономическое чудо, ваша оценка перспектив.***

**З.Самедзаде:**
Мне повезло я изучил основательно китайскую экономику и белорусскую, потому что в реформировании экономики у этих стран есть много общего. В Китае тоже они не фетишировали рыночные отношения, это действительно уникальная страна. Меня всегда поражал факт, того что как полтора миллиардное население в условиях глобальных катаклизмов обеспечивает свою продовольственную безопасность. За счет трудолюбия, умелого подхода к крестьяну которую работает в сельском хозяйстве… Доля китайской экономики в начале 20 лет в мировой экономики составляла 2-3%, сегодня эта цифра достигла 15-16% процентов, а если считать по паритету покупательной стоимости это уже примерно 20 %. Великий шелковый путь это стратегическая дорога 21 века. Китай активно участвует в этом проекте, играет ключевую роль в нем. Я очень рад тому что Беларусь также подключилась к этому проекту также как и Азербайджан, который находится в центре Южного Кавказского региона. Это один из проектов, который сближает наши страны. Кроме того в Беларуси завершается стоительство крупного логистического центра, что даёт Азербайджану возможность выхода на европейский рынок со своей продукцией. Сам Великий шелковый Путь это постоянный источник для развития экономик участвующих стран, постоянный источник экономической стабильности. То есть, если у государстве есть альтернативные проекты развития экономики - национальная безопасность обеспечена.

**Ведущая:**
***В Азербайджане нефть, Беларусь понятно находится на другом энергетическом полюсе и мы делаем ставку на электроэнергию и даже создаем собственный электрокар. Какой ваш рецепт энергетического успеха?***

**З.Самедзаде:**
Обладание природными ресурсами это не панацея от всех бед. Есть страны, которые производят намного больше нефти, чем Азербайджан, но они по показателям уровня жизни и по показателям характеризующим экономическое развитие очень отстают. Важно умело использовать эти ресурсы. Азербайджан ведёт активную энергетическую политику и извлекает из неё положительные результаты. У вас нет нефти, но есть трудолюбивый народ, высочайший уровень человеческого капитала, вы развивайте свою энергетическую базу, разрабатываете альтернативные источники. И это правильный путь. Потому, что нефть не вечное благосостояние - через 20, 30, 40, 50 лет её не будет. Диверсифицировать по опыту Беларуси электроэнергетику, построение атомных электростанций на базе современных технологий. Это безусловно важный фактор предотвращения энергетического голода. Вообще вопросы безопасности – энергетическая, продовольственная в целом экономическая безопасность ключевая задача стран во всём мире. Эти фаткоры, плюс политическая стабильность это гарант будущей стабильности это перспективных, высоких темпов качественного развития государства.

**Ведущая:**
***Возвращаясь к нефти, многие страны которые богаты нефтяными недрами, уже сейчас заговорили о пост нефтяной эре в экономике и Азербайджан конечно тоже остро почувствовал падение цен на черное золото. У специалистов, учёных есть сценарий того как сегодня в этих условиях оказаться на плаву?***

**З.Самедзаде:**
Из подобной ситуации можно выйти только путем планомерной политики совершенствования структуру экономики. Мы уже начали эту политику. У нас весь прирост экономики до 2025 года будет обеспечен за счет ненефтяного сектора. Президент Ильхам Гейдарович собрал Кабинет Министров и прямо указал – считайте, что нефти в стране нет. Хотя там идут дела хорошо, мы заключаем крупные контракты, глобальные корпорации работают сегодня в Азербайджане применяя новейшие технологии. Но глава государства заявил чиновника - занимаетесь другими вопросами – дорогами, доступным жильем, туризмом, аграрным сектором, логистика. Уже сейчас при спаде объема производства из-за снижения цены нефти у нас темпы роста ненефтяного сектора высоки, и это уже дает нам основание говорить, о том, что в перспективе у нас будет положительный экономический рост.

**Ведущая:**
***От большой политик и к спорту, но тоже экономическим акцентом. Минск принял эстафету от Баку, и Беларусь активно готовятся ко вторым Европейским Играм, но понятно что это событие не только большой спортивный праздник но и мероприятия имиджевые. У Баку есть опыт, как этот имидж может конвертировать Беларусь?***

**З.Самедзаде:**
Я всегда говорил, и сегодня говорю о том что в Белоруссии спорт - это государственная политика. Спорт это прежде всего здоровье, воспитание будущего поколения. Рассчитать тут экономический эффект… мне кажется это не главная цель. Имидж Беларуси двадцать лет назад и сегодня это совершенно разные категории. Ваша страна сегодня один из активных участников мировой политики, мировых экономических процессов по селу, у вас мощная экономическая база, народ един, есть консенсус. И это самое главное – молодая независимая республика Беларусь приглашает тысячи людей со всего земного шара на праздник – приезжайте, посмотрите это ваша деморактия, а это наша, ваша работа – наша.

Качественное проведение олимпиады это ещё и один из способов, по которым можно показать всему миру, то что страна динамично и качественно развивается.

**Ведущая:**
***Спасибо что нашли время ответить на наши вопросы.***

**З.Самедзаде:**
**Спасибо и Вам за приглашение.**

# İstedadlı alim, təcrübəli iqtisadçı, müdrik ağsaqqal



İqtisad elmləri doktoru, professor Rauf Cəbiyev Azərbaycanın tanınmış iqtisadçı alimlərindəndir. O, 1935-ci il oktyabr ayının 25-də Bakı şəhərində anadan olmuşdur. 1965-ci ildə Azərbaycan Dövlət Universitetinin (hazırkı Bakı Dövlət Universiteti) filologiya, 1971-ci ildə isə D.Bünyadzadə adına Azərbaycan Xalq Təsərrüfatı İnstitutunun (hazırkı İqtisad Universiteti) Sənaye İqtisadiyyatı fakültəsini bitirmişdir.

Az bir zaman çərçivəsində Rauf Cəbiyev iqtisadiyyat sahəsində bacarıqlı bir tədqiqatçı olduğunu göstərir və 1974-cü ildə uğurlu elmi müdafiəsindən sonra iqtisad elmləri namizədi alimlik dərəcəsini alır. Bu sahədə ilk addımları və uğurları Rauf müəllimi daha gərgin və səmərəli işləməyə, fəaliyyətini genişləndirməyə sövq edirdi. Elmi fəaliyyətini davam etdirmək onun həyat amalına çevrilmişdi. 1991-ci ildə iqtisad elmləri doktoru və 1993-ci ildə Azərbaycan Respublikası Ali Attestasiya Komissiyasının qərarı ilə professor elmi adını qazanır.

Onun elmi fəaliyyət dairəsi keçən əsrin 70-90-cı illərində yeni təsərrüfatçılıq şəraitində mənfəətin stimullaşdırıcı rolu, sənayedə təsərrüfat hesabı münasibətlərinin təkmilləşdirilməsi və inkişafı problemlərinə həsr edilmiş və bu istiqamətdə SSRİ miqyasında nəşr edilən nüfuzlu iqtisadiyyat jurnallarında çoxsaylı məqalələri işıq üzü görmüşdür. Respublika və ittifaq miqyaslı elmi-praktiki konfranslarda prinsipial və novator çıxışları ilə fərqlənmişdir. Professor Rauf Cəbiyev beynəlxalq layihələr üzrə keçirilən müsabiqələrdə də fəal iştirak edib. O, 2003-cü ildə Dünya Bankının "Azərbaycanda yoxsulluq və onun azaldılması", 2005-ci ildə "Neft və yoxsulluq" mövzusunda keçirilən müsabiqələrinin də qalibi olub. Həmçinin, 2007-ci ildə Rusiya Federasiyasının Azərbaycandakı səfirliyi tərəfindən elan edilən "Rusiya-Azərbaycan münasibətləri: stabillik və qarşılıqlı maraqlar" adlı müsabiqədə iştirak edərək birinci yeri tutub.

Rauf müəllim 20 monoqrafiya və elmi kitabın müəllifidir, iqtisadiyyatın müxtəlif sahələrinə həsr olunmuş 360-dan çox məqaləsi nəşr edilmiş, iqtisadçı-alimlər və tədqiqatçılar tərəfindən elmi mənbə kimi istifadə olunmaqdadır.

Onun Azərbaycanda, MDB və digər xarici ölkələrdə çap olunmuş elmi məqalələri iqtisadiyyat elminin dəyərli nümunələrindən olmaqla, həm də Azərbaycanda iqtisadiyyat elminin inkişaf və uğurlarını ortaya qoyan nümunələrdir. Professorun sonuncu elmi əsəri "İnnovasiya sferasında Azərbaycanın dövlət siyasəti" adlanır. 2015-ci ildə Almaniyanın Berlin şəhərində çapdan çıxmış bu kitab istər elmi dairələrdə, istərsə də tədqiqatçılar arasında böyük marağa səbəb olmuşdur və əminliklə deyə biləik ki, uzun illər də bu dəyərini itirməyəcəkdir.

Professor Rauf Cəbiyev iqtisadiyyat sahəsində xidmətlərinə görə, habelə beynəlxalq layihələr üzrə keçirilən müsabiqələrdə dəfələrlə fəxri fərmanlar, pul mükafatı və qrantlar almışdır. Bu gün Rauf müəllimin 82 yaşı tamam olur. Ömrünün 50 ildən çoxunu iqtisadiyyat sahəsində səmərəli fəaliyyətə həsr etmişdir.

Buna baxmayaraq, o, yenə gənclik eşqi ilə, həvəsi ilə yazıb yaradır. Onun işgüzarlığına və fəaliyyətinə bu gün də yalnız qibtə etmək olar. Rauf müəllim istedadlı alim, təcrübəli iqtisadçı, müdrik ağsaqqal, etibarlı dost və gözəl ailə başçısıdır.

Bir insan və alim kimi böyük ürəyə sahib olan professor Rauf Cəbiyevin həyat yolu onu tanıyanlar üçün bir örnəkdir.

Rauf müəllimin ad günü ərəfəsində Rusiyadan şad xəbər gəldi. Hörmətli alimimiz bir neçə gün əvvəl Rusiya Təbiət Elmləri Akademiyasının müxbir üzvü seçilib. Bu münasibətlə Rauf müəllimi ürəkdən təbrik edir, uğurlar və cansağlığı arzu edirik.

**"İqtisadiyyat"**

# Pirallahı Sənaye Parkında infuziya və inyeksiya məhlullarının istehsalı üzrə müəssisə yaradılacaq

"Azərbaycan İnvestisiya Şirkəti" ASC və Ukraynanın "İndar" şirkəti arasında Pirallahı Sənaye Parkında 3 hektar ərazidə infuziya və inyeksiya məhlullarının beynəlxalq standartlara (GMP) uyğun istehsalı üzrə müəssisənin yaradılmasına dair anlaşma memorandumu imzalanıb. İnvestisiya dəyəri 17 milyon ABŞ dolları olan layihə çərçivəsində 350-yə yaxın iş yerinin yaradılması nəzərdə tutulur.

Qeyd edək ki, imzalanma oktyabrın 20-də Bakıda keçirilən Azərbaycan-Ukrayna biznes-forumunda baş tutub.



# Sumqayıt Texnologiyalar Parkında Körfəz ərəb dövlətləri ilə qarşılıqlı əməkdaşlıq əlaqələri müzakirə olunub

Ölkəmizdə səfərdə olan Körfəz Ərəb Dövlətlərinin Əməkdaşlıq Şurasının baş katibi Əbdüllətif bin Raşid Əl-Zəyyəninin başçılıq etdiyi nümayəndə heyəti Sumqayıt Texnologiyalar Parkında (STP) olub.

Sumqayıt Texnologiyalar Parkından bildirilib ki, əvvəlcə nümayəndə heyəti ilə ikitərəfli görüş keçirilib. Qonaqlara Azərbaycan Prezidentinin təşəbbüsü ilə ölkədə müxtəlif təyinatlı sənaye parklarının yaradılması istiqamətində həyata keçirilən tədbirlər barədə ətraflı məlumat verilib. Qeyd edilib ki, 2009-cu ildən fəaliyyət göstərən Sumqayıt Texnologiyalar Parkında yaradılmış istehsal sahələrinin potensialı Azərbaycan iqtisadiyyatının qeyri-neft sektorunun inkişafının bariz nümunəsidir. Bildirilib ki, qısa müddətdə Cənubi Qafqazda unikal müasir texnopark yaradılıb. Hazırda burada 13 zavod və 30-dan artıq istehsal sahəsi fəaliyyət göstərir.



STP-nin baş direktoru Emin Məmmədov müəssisənin məhsullarının körfəz ərəb dövlətlərinin bazarlarına çıxarılması perspektivləri, iqtisadi əməkdaşlıq əlaqələri haqqında danışıb. Qeyd edilib ki, STP-nin tərkibində olan müəssisələr istehsal etdiyi yüksəkkeyfiyyətli, beynəlxalq standartlara cavab verən məhsulları və xidmətləri ilə istənilən layihədə uğurla iştirak etməyə hazırdır: "Şirkətdə istehsal və idarəetmə sistemi beynəlxalq standartlar nəzərə alınaraq təşkil edilib. Bu da bizə xarici bazarlara çıxmaq imkanı verir. Müəssisə daxili tələbatla yanaşı, xarici bazarın da ehtiyaclarını tam qarşılamaq gücündədir. İstehsal edilən yüksəkkeyfiyyətli məhsullarımız və münasib qiymətlərimizin sizlərin də tələblərinə uyğun olduğunu hesab edirəm".

Qonaqpərvərliyə görə minnətdarlığını bildirən nümayəndə heyətinin rəhbəri Əbdüllətif bin Raşid Əl-Zəyyəni Sumqayıt Texnologiyalar Parkının onlarda xoş təəssürat yaratdığını qeyd edib. Azərbaycan ilə şuraya üzv dövlətlər arasında əməkdaşlığın müxtəlif sahələrdə, o cümlədən qeyri-neft sektorunda daha da inkişaf etdirilməsi üçün böyük potensialın və qarşılıqlı marağın olduğunu vurğulayıb. STP ilə gələcək əlaqələrin qurulmasının keçiriləcək Azərbaycan-Körfəz Ərəb Dövlətlərinin Əməkdaşlıq Şurasının biznes-forumunda müzakirə edilməsinin vacib olduğunu söyləyib.

Sonra nümayəndə heyəti zavodları gəzərək, istehsal prosesi ilə tanış olub. Onları maraqlandıran çoxsaylı suallar mütəxəssislər tərəfindən cavablandırılıb.

# Azərbaycan İqtisadçılar İttifaqı 7 saylı məktəbdə tədbir keçirmişdir

Azərbaycan Respublikası Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının qrantı hesabına Azərbaycan İqtisadçılar İttifaqı aktual mövzuda layihə icra edir. "Azərbaycan milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi"ndə "İnsan kapitalının inkişaf etdirilməsi" strateji hədəfinin təşviqi tədbirləri" adlanan bu layihənin icrası uğurla davam edir. Layihə çərçivəsində 16.10.2017 tarixdə Bakı şəhəri Səbail rayonu 7 saylı tam orta məktəbdə pedaqoji kollektivin nümayəndələrinin iştirakı ilə dəyirmi masa keçirilmişdir. Tədbirdə layihə eksperti, ADPU-nun dosenti İlham Əhmədov məruzə ilə çıxış etmişdir. Məruzəçi qeyd etmişdir ki, milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsində əsas strateji hədəflərdən olan "İnsan kapitalının inkişaf etdirilməsi" məsələləri bu gün bütün ölkələr üçün aktualdır. Bu gün ölkəmizdə qeyri-neft sektorunun inkişaf etdirilməsi mərhələsində insan kapitalı amili xüsusi ilə mühüm rola malikdir. İnsan kapitalının inkişafı isə təhsildən, onun keyfiyyətinin təmin edilməsindən daha çox asılıdır. Bu səbəbdən 2017-ci il ölkəmizdə "Təhsildə keyfiyyət ili" kimi qeyd edilir. Məruzənin sonunda tədbir iştirakçıları - Bakı şəhəri Səbail rayonu 7 saylı tam orta məktəbin direktoru Könül Həsənova və məktəbin müəllimləri bu məsələ



ilə əlaqədar öz fikir və təkliflərini bildirmiş, belə maraqlı mövzunun layihə çərçivəsində həyata keçirildiyi üçün təşkilatçılara Azərbaycan Respublikası Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasına və Azərbaycan Respublikası İqtisadçılar İttifaqına minnətdarlıq bildirmiş, maraqlı məruzə üçün təhsil eksperti İlham Əhmədova təşəkkür etmişlər.

# Barama FinTech Hackathon 2017Mobile App layihəsinə qeydiyyat başladı



"Azercell Telekom" MMC və "PAŞA Bank"ın dəstəyi, "Barama İnnovasiya və Sahibkarlıq Mərkəzi"nin və ADA Universitetinin təşkilatçılığı ilə gənc proqramçılar üçün təlim və yarış xarakterli Barama FinTech Hackathon 2017 Mobile App layihəsinə start verilir. Artıq ölkəmizdə dördüncü dəfə təşkil olunan Barama FinTech Hackathon 2017Mobile App layihəsi mobil developerlərin 36 saat ərzində yatmadan fasiləsiz yeni mobil tətbiqetmə hazırlamasını özündə ehtiva edən yarışmadır. Bu layihənin əsas məqsədi ölkəmizdə informasiya texnologiyaları sahəsinə olan marağı artırmaq və bu sahədə olan istedadlı insanların bacarıqlarını göstərməsinə şərait yaratmaqdır. Bununla yanaşı, keçirildiyi müddət ərzində müxtəlif proqramların və alətlərin yaradılması, bununla da proqramçıların öz aralarında rəqabət şəraitində biliklərini yoxlamaq və yeni biliklər qazanmalarına şərait yaratmaq da layihənin əsas məqsədlərindəndir. 15 yaşından yuxarı və texniki biliklərə malik olan hər kəs 25.10.2017 tarixinə qədər www.hackathon.barama.az linki vasitəsilə qeydiyyatdan keçib bu yarışmada iştirak edə bilər.

Qalibləri aşağıdakı hədiyyələr gözləyir:

1 yer tutan komanda - 1500 azn dəyərində hədiyyələr

2 yer tutan komanda - 750 azn dəyərində hədiyyələr

3 yer tutan komanda - 450 azn dəyərində hədiyyələr

Onu da bildirək ki, layihə çərçivəsində komandaların qida tələbatı Özsüt restoranlar şəbəkəsi tərəfindən ödəniləcək. Tədbirin Media dəstəyi isə technote.az tərəfindən təmin ediləcək.

Xatırladaq ki, Barama İnnovasiya Mərkəzi Azercell şirkəti tərəfindən Azərbaycanda sahibkarlığa dəstək vermək məqsədilə 2009-cu ildə yaradılmış layihədir. Barama əsasən informasiya texnologiyaları sahəsində fəaliyyət göstərən layihələri və yaranmaqda olan şirkətləri – startup-ları dəstəkləyərək onların şirkət kimi fəaliyyət göstərməsinə kömək edir. Fəaliyyətdə olduğu 7 il ərzində mərkəz bir çox uğura imza atıb. Belə ki, mərkəzdə 100-dən çox layihə fəaliyyətə başlayıb, onlardan 40-ı uğurla başa çatıb, hal-hazırda fəaliyyətdə olan 4 uğurlu şirkət yaranıb.

# REKLAMIN VİZUAL TƏRTİBATI ÜÇÜN PSİXOLOJİ ÜSULLAR

Amerikalı sahibkar və marketoloq Nik Kolenda reklamda vizual kontentin yaradılmasının çoxsaylı taktikasını müəyyən etmişdir. Bunlarla tanış olaq.

**REKLAM KONTENTİ**

Reklam adətən üç elementi ehtiva edir: təsvir, sözlər (mətnlər) və brendinq (loqotip).

***Təsvirlərin və qrafiklərin soldan yerləşməsi.***

Elanın tərtib edilməsi zamanı təsvirin və mətnin məkanca mövqeləşməsini nəzərə almaq lazımdır. Bu elementlər sizin görünüşünüzün anatomik xüsusiyyətləri ilə üst-üstə düşməlidir.




Siz xarici siqnalları bir görmə sahəsindən qəbul edirsinizsə, onda bu informasiyanı artıq əks yarımkürəyə emal edirsiniz.

Sol görmə sahəsində yaranan stimul (hərəkətgətirici səbəb, maraq oyadıcı amil) ilkin olaraq proyeksiyaya salınır və sağ yarımkürə ilə emal olunur. Sağ görmə sahəsində yaranan stimul da ilkin olaraq proyeksiyaya salınır və sol yarımkürə ilə emal olunur.

Neyroanatomik strukturun belə bir quruluşu sayəsində sağ yarımkürə reklamın sol hissəsində təqdim olunan informasiyanı emal edir:




Bir halda ki, sağ yarımkürə təsviri informasiyanın, sol yarımkürə isə məntiqi və şifahi verbal informasiyanın emalı üçün daha uyğundur,onda mətndən sola təsvirin yerləşməsi bütün xəbərin emalını yaxşılaşdırır.

Elanın sol tərəfinə yaxın qrafiklərin və təsvirlərin yerləşməsi zamanı informasiyanın emalının itiliyini, yəni çəldliyini artırırsınız. İnsanlar elanı daha müsbət qiymətləndirərək, onu sürətlə qəbul edəcəkdir. Reklam şəkillərində insan təsvir olunarkən onun duruşu, sağa meyilli olarsa vizual baxımdan düzgün hesab olunmur. Reklamda insanın duruşu sola meyilli olarsa bu daha yaddaqalan olar.

Mental qarşılıqlı fəaliyyəti həvəsləndirən məhsulun təsviri. Bu taktika reallaşmada çox təsirli və sadədir. Əsas məqsədə - mental qarşılıqlı fəaliyyətə nail olmaqdan ötrü öz məhsulunuzu nümayiş etdirin.

Misal olaraq göstərmək lazımdır ki, 2012-ci ildə tədqiqatçılar Rayan Elder və Ariadne Krişna qəhvə fincanının reklamının eksperimentini iştirakçılara nümayiş etdirdilər. Məlum oldu ki, sınaqdan keçirənlər böyük ehtimalla əmtəəni o zaman almaq istəyirdilər ki, fincanın dəstəyi sağa tərəf dönə bilsin.




Tədqiqatçılar hesab edirlər ki, bu, hərəkətin yüksək daxili stimulyasiyası ilə əlaqədardır. Dəstək sağda yerləşən zaman eksperiment iştirakçıları böyük dərəcədə predmetlə fikrən (xəyalən) qarşılıqlı fəaliyyətdə olurdular. Lakin bu effekt iştirakçılar nəyisə əlinə götürən zaman itib batırdı. Eksperiment iştirakçısının əsas əli sərbəstdirsə, predmetin müvafiq vizual təsiri alqı niyyətinin güclənməsinə gətirib çıxarır. Lakin əsas əl məşğuldursa, əks effekt alınacaqdır.

İndi əmtəənin dəstəyi olmayan halı nəzərdən keçirək. Bir neçə eksperiment çərçivəsində tədqiqatçılar digər modelləşdirmə növlərinin sübutunu tapdılar. Belə ki: yemək qablarını və ləvazimatlarını (qaşıq, çəngəl və s.) sağ tərəfdə yerləşdirin (sağ əllə fikrən qarşılıqlı fəaliyyət üçün):




Siz belə təsvirlərdən həmişə istifadə edə bilərsiniz ( məsələn, reklamda və ya ecommerce saytlarında). Əksər vaxtlarda belə hallar əmtəəni daha cəlbedici edir, çünki mental qarşılıqlı fəaliyyətin möhkəmlənməsi funksiyasına malikdir.




İnsanlara digərlərinin diqqətli baxışlarının ardınca getməsi xasdır. Bu cəhət bizim əcdadlarımıza təhlükəni aşkar etməyə kömək etmişdir, təkamül isə badamcıq vəzilərində bu qabiliyyəti sürətləndirmişdir. Bu meyildən reklam kampaniyalarında istifadə edilə bilər. Əgər sizin elanınız insanların təsvirini əks etdirirsə, onları öz STA-nızda (fəaliyyətə çağırış düyməsi) meyilləndirin. Məhz bununla siz bu sahəyə diqqəti cəlb edəcəksiniz.

Frontal (üzü baxana tərəf çevrilmə) təsvirlər elanın vacib hissələrinin əvəzinə əsas qəhrəmana diqqəti cəlb edəcəkdir (davamı var).

**BDU-nun dosenti**
**F.M.Qarayev**

# “Aura” Sağlamlıq mərkəzi yeni aksiyaya start verib

15 noyabr tarixinə qədə davam edəcək qızıl fürsət aksiyasını qaçırmayın. “Aura” Sağlamlıq mərkəzindən 3 aylıq üzvlük aldıqda 1 ay, 6 aylıq üzvlük aldıqda 2 ay və bir illik üzvlük aldıqda əlavə 3 ay pulsuz üzvlük hədiyyə olunacaq.

Qeyd edək ki, sahəsi 3 500 kv.metr olan 3 mərtəbəli “Aura” sağlamlıq mərkəzində peşəkar idmanla məşğul olmaq üçün hər bir şərait var. Trenajor zalında bütün qrup əzələləri möhkəmləndirmək üçün 50-dən artıq müasir trenajor, ürək əzələlərini möhkəmləndirmək və artıq çəkidən azad olmaq üçün kardio trenajorlar quraşdırılıb. Eləcə də, açıq tennis kortu, spa-terapevtlərin xidmətləri, istirahət otaqları, qapalı və ilin isti vaxtlarında açıq havada işləyən 2 hovuz “Aura” klubunun daimi üzvlərinə xidmət edir. Mərkəzə gələnlərə dəsmallar, xələtlər və nəleyin və kosmetik vasitələr verilir.




# Azercell-dən “Hədsiz” İnternetlə və ilkin ödənişsiz iPhone8 əldə et!

iPhone 8 və iPhone 8 Plus cihazlarının Azərbaycanda rəsmi təqdimatçısı olan Azercell Telekom müştərilərinə yeni cəlbedici kampaniya ilə iPhone 8 smartfonunu təqdim etməkdən məmnunluq duyur. Beləliklə, ayda cəmi 109 AZN ödəməklə abunəçilər ən müasir smartfona sahib olacaq və 30GB həcmində “Hədsiz” İnternet paketini əldə edə biləcəklər. 20-26 oktyabr tarixləri ərzində sifarişlərini öncədən həyata keçirən abunəçilər isə ilk ay üçün “Hədsiz” tarifindən pulsuz istifadə qazanacaqlar.

Öncədən sifariş kampaniyasına qoşulmaq üçün abunəçilər 20-26 oktyabr tarixləri ərzində Azercell-in rəsmi veb səhifəsindən (www.azercell.com) sifarişi qeyd etməli, 27 oktyabr – 3 noyabr tarixlərində isə Azercell-in Müştəri Xidmətləri Mərkəzlərinə yaxınlaşmalıdırlar. Onu da bildirək ki, telefonların sayı məhduddur. Qeyd etmək lazımdır ki, iPhone 8 və iPhone 8 Plus mobil telefonları iPhone-nun ən yeni nəsil modelləri olub, yeni kamera sistemi və orijinal dizaynı ilə seçilir.

Azercell şirkəti bundan sonra da abunəçilərini yeni sərfəli kampaniya və xidmətlərlə sevindirməkdə davam edəcək.

# Bakcell abunəçiləri ölkə xaricində xərclədikləri məbləğin ƏDV hissəsini geri ala biləcəklər

Azərbaycanın İlk Mobil Operatoru və Aparıcı Mobil İnternet Provayderi Bakcell şirkətinin abunəçiləri artıq ölkə xaricində xərclədikləri məbləğin əlavə dəyər vergisini (ƏDV) daha rahat formada geri almaq imkanı qazanıblar.

“TaxFree4U” xidməti ilə əməkdaşlıq çərçivəsində Avropa ölkələrinə səfər edən Bakcell müştəriləri həmin ölkələrdə alış-veriş zamanı xərclədikləri məbləğin ƏDV-sini geri almaq üçün xüsusi mobil əlavədən istifadə edə bilərlər. “Bakcell TaxFree4U” mobil əlavəsi sayəsində, həmin əlavə vasitəsilə qeydiyyata alınan xərclər üçün bəyannamə doldurmağa və yaxud bir neçə yerdə növbədə durmağa ehtiyac olmayacaq. Proqramın digər üstün cəhəti ondan ibarətdir ki, abunəçilər sadəcə tərəfdaş mağazalar şəbəkəsində edilən alış-verişə görə deyil, ƏDV ödəyicisi olan bütün ticarət obyektlərində edilən alış-verişə görə ödənmiş məbləğin də ƏDV hissəsini geri alacaqlar.

Bakcell abunəçiləri mobil telefonlarına “Bakcell TaxFree4U” mobil əlavəsini yüklədikdən sonra Almaniya, Fransa, İtaliya, İspaniya, Finlandiya və ya Böyük Britaniyada olarkən etdikləri xərcləri bu proqrama asanlıqla daxil edə və xərclədikləri ümumi məbləğin 19%-ə qədərini geri ala bilərlər.

Azərbaycan, ingilis və rus dillərində təqdim edilən mobil əlavə bütün Bakcell abunəçiləri üçün nəzərdə tutulub.

“Bakcell TaxFree4U” mobil əlavəsini AppStore və ya GooglePlay vasitəsi ilə yükləmək olar. Qeydiyyatdan keçmək üçün 5678 qısa nömrəsinə SMS yollamaq yetərlidir.

# Bakcell-in sponsorluğu ilə Azərbaycanın Rəqəmsal Ticarət Qovşağının ilk beynəlxalq konfransı keçirilib

Azərbaycanın İlk Mobil Operatoru və Aparıcı Mobil İnternet Provayderi Bakcell şirkətinin sponsorluğu, İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin təşkilatçılığı ilə Bakıda “Azərbaycanın Rəqəmsal Ticarət Qovşağı: İnkişaf perspektivləri” mövzusunda beynəlxalq konfrans təşkil edilib.

Bakıda baş tutan konfransda rəqəmsal ticarət qovşaqlarının inkişafı ilə bağlı ümumi konsepsiya, bu sahədə əməkdaşlıq, elektron imzaların tətbiqi və qarşılıqlı tanınması mövzusunda təqdimatlar olub. Məruzəçilər ixrac prosedurlarının sadələşdirilməsi üçün yeni imkanlar, qeyri-rezidentlərə elektron imzaların verilməsi, məsafədən şirkət qeydiyyatı və idarə olunması, elektron bankçılıq üçün yeni həllərlə bağlı təqdimatlar edib.

Konfransda Avropa İttifaqı, Dünya Bankı, UNDP başda olmaqla beynəlxalq təşkilatlar, Böyük Britaniya, Rusiya, Estoniya, ABŞ, Polşa, İsveçrə və digər ölkələrdən biznes nümayəndələr, habelə Azərbaycanın dövlət qurumlarının və ictimai təşkilatların təmsilçiləri iştirak edib.

Azərbaycanın Rəqəmsal Ticarət Qovşağının ilk beynəlxalq konfransı zamanı İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi ilə bir neçə ölkənin mötəbər qurumları arasında əməkdaşlığa dair memorandumlar imzalanıb.

iDEAL DiZAYN
Daimi tərəfdaşınız
KEYFİYYƏTİMİZƏ ÖNƏM VERDİYİNİZ
DAİMİ TƏRƏFDAŞINIZ
- Ofis mebelləri
- Metal mebellər
- Metal seyflər
- Teatral kürsülər
- Məktəb mebelləri
- Yumşaq mebellər



*3434
YENİ MÜŞTƏRİ XƏTTİNİZ
Tel.: (012) 480 37 55
e-mail: office@idealdizayn.az
www.idealdizayn.az
Ünvan: Bakı şəh., Ə.Rəcəbli küç. 40



# “AtaTravel” MMC Nar bayram festivalına tur keçirir

“AtaTravel” MMC 4 noyabr tarixində Göyçayda keçiriləcək XII Nar bayramına tur təşkil edir. Bir nəfər üçün turun qiyməti 20 AZN təşkil edir. Qiymətə komfortlu nəqliyyat, səhər yeməyi, ekskursiyalar, tur rəhbəri, peşəkar fotoçəkiliş, yolboyu əyləncəli oyunlar və hədiyyələr daxildir. Həmçinin, tur iştirakçılarına 1 kq nar və digər hədiyyələr təqdim ediləcək. Sərbəst vaxtda Çərəkə kəndinin Çərəkə gölünə ekskursiya keçiriləcək.

Qeyd edək ki, Nar bayramında Göyçay rayonun ayrı-ayrı kəndlərində yetişən Gülövşə, Vələs, Balamürsəl, Şirinnar, Tumsuz nar və digər nar növləri və onlardan hazırlanmış məhsullar sərgidə nümayiş etdiriləcək. Narlar tarixən Azərbaycanın, demək olar ki, bütün regionlarında yetişdirilir. Lakin quru subtropik zonada yerləşən Şirvan ən yaxşı nar sortlarının yetişdirilməsi mərkəzi kimi qəbul edilmişdir. Şirə istehsalı üçün əsas etibarı ilə Göyçay rayonunda yetişən narlardan istifadə olunur. Daha geniş məlumat almaq üçün “AtaTravel” MMC-yə (994 12) 493-05-01 (daxili 104) nömrəli telefona və ya (050) 245 05 09 mobil telefonuna zəng vurun.

“AtaHolding” Şirkətlər Qrupunun turizm sektorunda “AtaTravel” MMC, “AtaTurizm” və “Excelsior Hotel & Spa Baku” oteli fəaliyyət göstərir. 2011-ci ildə təsis edilmiş “AtaTravel” MMC turizm agentliyi dünyanın istənilən yerinə səyahət xidmətləri təklif edir. Şirkət öz müştərilərinə mehmanxana, uçuşlar, köçürmələr, əvvəlcədən sifariş, sığorta, viza ilə əlaqədar xidmətlər göstərir.

**ETİBA RSIZDIR**

Bakı şəhəri, Seyidbəyli küçəsi, ev 4, mənzil 1 ünvanında Cəbrayılov Nadir Bəhlul oğlunun adına verilmiş seriya MN № 002093 qeydiyyat vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Təsisçi:
Akademik Ziyad SƏMƏDZADƏ
Baş redaktor:
Aytən SƏMƏDZADƏ

ELMİ-REDAKSİYA ŞURASI:
Ziyad Səmədzadə, Aytən Səmədzadə, Akif Musayev, Qüdrət Kərimov, Elşən Hacızadə, Elşad Səmədzadə, Məhiş Əhmədov, Müşfiq Atakişiyev, Amil Məhərrəmov, Rüfət Quliyev, Mirqasım Vahabov, Süleyman Qasımov, Ədalət Muradov, Vahid Novruzov, Aydın Hüseynov, Rəsul Balayev, Cahangir Qocayev, Abbas Əliyev

Redaksiyanın ünvanı:
Əliyar Əliyev küçəsi, 7
Redaksiya: 566 09 60
Faks: 514 14 27
Mühasibatlıq: 566 63 08

Dərc olunan materiallardakı fikirlər Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir. “İQTİSADİYYAT” qəzetinin kompüter mərkəzində yığılmış və səhifələnmiş, “Azərmedia” MMC mətbəəsində çap edilmişdir. Lisenziya: 022201; İndeks: 0355; Tiraj: 2500